YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 sentyabr 2023-cü il Çərşənbə № 167 (8303) Qiyməti 60 qəpik

Xəbər

"Naxçıvanlıların Türkiyədən deportasiyası" iddiası

yazısı səh.3-də

SƏBRİN BİTDİYİ GÜN: SONUNCU TERRORÇU TƏSLİM OLANA QƏDƏR DAVAM...

Bir gündə erməni diversiya qruplarının törətdiyi mina terroru nəticəsində 7 polis və iki mülkü şəxsin həlak olması Azərbaycanın səbrini daşırdı-antiterror əməliyyatı mülkü ermənilər deyil, ölkəmizə düşmən kəsilən silahlıları və onların istehkamlarını məhv edir; Türkiyədən tam dəstək gəldi, Rusiyanın reaksiyası...





yazısı səh. 8 və 9-da

Gündəm

Bakı ABŞ-la bağlı mövqeyini sərtləşdirir



ABŞ həm erməni mövqeyinin ifadəçisi, həm də obyektiv vasitəçi roluna iddia edir

yazısı səh.4-də

"Əsrin müqaviləsi"nin 29-cu ili - qazancımız nələrdir... yazısı səh.5-də

Ermənistan və havadarlarının "humanitar böhran" şousu bitdi yazısı səh.6-da

İranın Azərbaycanla barışıq hazırlığı-iki mühüm qərar gözləntisi yazısı səh.7-də

Hesablama Palatasının hesabatı-yeni həbslər olacaq? yazısı səh.3-də

Dərmanlarla bağlı yeni qərar: hələ ki ucuzlaşma yoxdur yazısı səh.10-da

Azərbaycanın "Kolumbiyası" - antiterror əməliyyatını labüd edən əsas səbəb yazısı səh.11-də

Covidin yeni variantı bu gün olmasa da, Azərbaycana gələcək yazısı səh.10-da

Rusiyada hərbi səfərbərlik xofu yazısı səh.11-də

Ət yenidən bahalaşa bilər yazısı səh.13-də

Məktəblər başladı - bəs bufetlərə nəzarət? yazısı səh.14-də

Azərbaycanda yetkinlik yaşına çatmamış analar - şok statistika yazısı səh.15-də



Taleh Kazımov

Mərkəzi Bank bu gün hansı qərarı verəcək?

yazısı səh.12-də



Paşinyan amerikalı hərbçiləri ölkədə saxlaya bilər - qiyam qorxusu

yazısı səh.5-də



Dostları Cahangir Hacıyevi "ömürlüyə" göndərir

yazısı səh.13-də



Azərbaycanda "TikTok" bağlandı - rəsmi açıqlama

Azərbaycanda "TikTok" sosial şəbəkəsinin fəaliyyətinə müvəqqəti məhdudiyyət tətbiq edilib. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) məlumat yayıb:

"19 sentyabr tarixindən Azərbaycan ərazisində "TikTok" sosial şəbəkəsinin fəaliyyətinə müvəqqəti məhdudiyyət tətbiq edilib. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti vətəndaşları sosial şəbəkələrdə paylaşım edərkən Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə və sosial şəbəkə inzibatçılarının müəyyən etdiyi qayda və şərtlərə riayət etməyə çağırır".

Qeyd edək ki, sentyabrın Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Qardaşı Şuşada şəhid olmuşdu, özü dünən həlak oldu



Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində cinayətkar birlik halında qanunsuz yaradılmış Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Şuşa şəhəri iri çaplı silahlardan, o cümlədən minaatanlardan atəşə tutularaq törədilən terror hücumu nəticəsində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidməti mühəndisi, 1967-ci il təvəllüdlü Fərhadov Vidadi Aydın oğlu aldığı qəlpə yarası xəsarətindən ölüb. Qeyd edək ki, əslən şuşalı olan Vidadinin qardaşı da Birinci Qarabağ müharibəsində raket zərbəsi nəticəsində şəhid olmuşdu.

Faktla bağlı Baş Prokurorluq tərəfindən Cinayət Məcəlləsinin 120.2.11, 120.2.12 (terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik niyyətilə adam öldürmə) 214.2.1, 214.2.3 (mütəşəkkil dəstə tərəfindən odlu silahdan, partlayıcı maddələrdən və qurğulardan istifadə etməklə terrorçuluq) 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələr və qrupların tərkibində müəssisələrə, təşkilatlara və ayrı-ayrı şəxslərə basqın etmə ağır nəticələrə səbəb olma) və digər maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun istintaq idarəsinə həvalə edilib.

Hazırkı şəraitdə prokurorluq əməkdaşları tərəfindən mümkün olan istintaq hərəkətləri davam edirilir.



DİN-dən vətəndaşlara müraciət: diqqətli olun!

Respublikanın bütün ərazilərində DİN-in şəxsi heyəti gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

Modern.az xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin rəis əvəzi Elşad Hacıyev deyib.

O bildirib ki, antiterror əməliyyatları keçirilən müddətdə sosial şəbəkələrdəki paylaşımlarda rəsmi qurumların məlumatlarına istinad etsinlər.

"Əhalini dezinformasiya xarakterli məlumatlardan çəkinməyə çağırırıq".

DİN rəsmisi deyib ki, "TikTok" sosial platformasının fəaliyyəti məhdudlaşdırılıb.

"Ona görə ki, təhdidlər var idi, dezinformasiyalar yayılırdı. Düşmən bizə qarşı təkcə silahdan istifadə etmir, sosial şəbəkə seqmentlərindən də istifadə edir, dezinformasiyalar yayırlar. Hər bir azərbaycanlı diqqətli və məsuliyyətli olmalıdır. Yalnız dövlət qurumları tərəfindən verilən məlumatlara inanmalıdır", - deyə E.Hacıyev əlavə edib.



Azərbaycanda yeni seçki dairələri yaradılır

Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. İclasa MSK sədri Məzahir Pənahov rəhbərlik edib. O deyib ki, iclasın gündəliyinə seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsinə dair məsələ daxil edilib.

MSK sədrinin müavini Rövzət Qasımov bildirib ki, Seçki Məcəlləsinə əsasən, seçki dairələri ölkə üzrə seçicilərin sayının 125-ə bölünməsi yolu ilə formalaşdırılır. Bu məqam nəzərə alınaraq dövrü olaraq yeni seçki məntəqələri yaradılır: "Bu ilin mayından seçki dairələri üzrə seçicilərin orta təmsilçilik normasının yenidən müəyyənləşdirilməsinə ehtiyac yaranıb. MSK seçki dairələrinin hüdudlarının müəyyənləşdirilməsi üçün ekspertlərdən ibarət müvafiq komissiya yaradılıb. Orta təmsilçilik norması nəzərə alınaraq, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiqlənməsi təklif olunub. Seçki dairələrinin yaradılması və qrafik təsvirinin yenidən müəyyənləşdirilməsi zamanı bələdiyyələrin bölünməməsi kimi bir sıra məqamlar nəzərə alınmalıdır. Çalışmışıq ki, dairələr üzrə seçicilərin orta təmsilçiliyi bir-birinə yaxın olsun. Dairələr yenidən formalaşdırılarkən aktiv və passiv seçki hüququndan istifadənin daha optimal olması diqqət mərkəzində olub".

Rövzət Qasımov sonra MSK-nın seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsinə dair qərar layihəsini təqdim edib. Qeyd edilib ki, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsi üçün hüquqi əsas yaranıb: "Bununla əlaqədar qərara alınır ki, seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsviri yenidən təsdiq edilsin, seçki dairələrinin yeni siyahısı dərc olunsun".



Medvedyev Paşinyanın arvadı haqda: "Peçenye ilə düşmənlərimizə getdi"

"Bir gün qardaş ölkədən olan həmkarlarımdan biri mənə dedi: "Yaxşı, mən sənə yad adamam, məni qəbul etməyəcəksən". Bunu Rusiyanın sabiq prezidenti, Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyev teleqram kanalında yazıb.

"Mən isə cavab verdim: "Biz tərcümeyi-halı ilə deyil, hərəkətlərlə mühakimə edəcəyik". Sonra müharibəni uduzdu, amma qəribə bir şəkildə yerində qaldı. Sonra məğlubiyyətə görə Rusiyanı günahlandırmaq qərarına gəldi. Sonra ölkəsinin ərazisinin bir hissəsindən imtina etdi. Sonra NATO ilə flört etmək qərarına gəldi və arvadı cəsarətlə peçenye ilə düşmənlərimizə getdi. Təxmin et, onu hansı aqibət gözləyir...", - deyə o qeyd edib.

35 sahibkarın kredit borcu dövlət tərəfindən ödənildi



Nazirlər Kabinetinin 2020-ci il 9 iyul tarixli qərarına əsasən, koronavirus pandemiyasından zərər çəkmiş sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi tədbirləri çərçivəsində 2020-2021-ci illər ərzində kommersiya bankları tərəfindən sahibkarlara ayrılan kredit məbləğinin 60 faizinədək olan hissəsinin qaytarılmasına dövlət zəmanətinin verilməsi nəzərdə tutulub.

Maliyyə Nazirliyindən verilən məlumata görə, dövlət dəstəyi sayəsində 2.628 sahibkara ümumilikdə 499,5 milyon manat kredit ayrılıb.

"Onun da 291,6 milyon manat hissəsi dövlət zəmanəti ilə təmin olunub. Maliyyə Nazirliyi ilə Sahibkarlığın İnkişafı Fondu, Fondun isə qeyd olunan banklarla və sahibkarlarla bağladığı sazişlərə uyğun olaraq nazirlik həmin kreditlər üzrə dövlət zəmanətinin verilməsində zamin tərəf müəyyən olunub.

Dövlət zəmanətli kreditlərin ayrıldığı müddətdən etibarən, əsas borc öhdəliyi vaxtında yerinə yetirilmədiyindən Maliyyə Nazirliyi ümumilikdə 7 bank qarşısında zamin tərəf olaraq "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun vəsaiti hesabına 2022-ci ildə 14 sahibkarın əvəzinə 658,2 min manat, 2023-cü ilin 8 ayı ərzində isə 21 sahibkarın əvəzinə 1.339, 6 min manat həcmində vəsait ödəyib.

Dövlət zəmanətlərinin verilməsi şərtlərinə uyğun olaraq, Sahibkarlığın İnkişafı Fondu dövlət zəmanəti əsasında sahibkarlıq subyektlərinin əvəzinə banklara ödənilmiş kredit borcunu həmin sahibkarlıq subyektlərindən tələb etmək hüququna malikdir", - rəsmi məlumatda qeyd edilib.

Azərbaycan sərhədləri tam nəzarətdə

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin KİV-lə əlaqələr şöbəsinin rəisi Avtandil Abbasovun keçirdiyi mətbuat brifinqində Azərbaycanın sərhədləri boyunca əməliyyat vəziyyətinin hazırda tam nəzarət altında olduğunu iddia edən qətiyyətli bəyanat verilib. Abbasov Azərbaycan bölmələrinin ölkə sərhədlərinin qorunmasına və möhkəmləndirilməsinə sadiqliyini təsdiqləyib, istənilən potensial təxribatlara tez və qətiyyətli cavab verəcəyini vəd edib.

"Hazırda bölmələrimiz Azərbaycanın dövlət sərhədi boyunca bütün istiqamətlər üzrə əməliyyat şəraitinə tam nəzarəti saxlayır", - Abbasov bildirib. "Dövlət sərhədlərimizin təhlükəsizliyini və bütövlüyünü təmin etmək üçün lazımi tədbirlər fəal şəkildə həyata keçirilir. Dövlət Sərhəd Xidməti istənilən mümkün təxribatlara dərhal müvafiq və sərt cavab verməyə hazır-

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

"Naxçıvanlıların Türkiyədən deportasiyası" iddiası

İşsizlik səbəbindən vətəni tərk edən naxçıvanlılar son ümid yeri bildikləri Türkiyədən kütləvi şəkildə geri qaytarılırlar. Hesablamalara görə, son bir neçə gündə 1000 nəfərdən artıq şəxs bu ölkədən Naxçıvana deportasiya olunub. Deportasiyaya səbəb onların 90 günlük viza müddətinin başa çatması göstərilir.



Bu haqda "Gündəlik Naxçıvan"a Türkiyədən deportasiya olunan şəxslər məlumat verib. Onların iddiasına görə, son prezident seçkilərinə kimi, viza müddəti illər öncə bitmiş olsa da belə, onlara dəyib-toxunan yox imiş. Seçki bitər-bitməz, öncə onlara Türkiyəni öz xoşları ilə tərk etməklə bağlı xəbərdarlıq edilib. Xəbərdarlıq nəticə vermədiyindən, bu yaxınlarda deportasiya etməyə başlayıblar.

Deportasiya olunanlardan Vaqif İsmayılov deyir ki, indiyə kimi onlara azərbaycanlı olduqları üçün güzəşt edilirmiş. Son seçkilərdən sonra isə vəziyyət dəyişib, polis onları tutan kimi deportasiya edir:

"Hərdənbir polis yoxlamasına düşsək də, azərbaycanlı olduğumuzu bilən kimi, güzəşt edib, buraxırdılar. Seçkilərdən sonra isə başqa ölkə vətəndaşları ilə bizə fərq qoymurlar, tutan kimi deportasiya edirlər. Bir həftə öncə İstanbulda polis məni saxladı, xaricilər şöbəsinə apardı. Şöbə naxçıvanlılarla dolu idi. İki gün saxlayıb, mənimlə birlikdə 100-dən çox naxçıvanlını deportasiya etdilər. Dedilər ki, tapşırıq var, artıq güzəşt edə bilmirik".

Şərur rayon sakini Cəmil Quliyev isə bildirir ki, onu İstanbul şəhərindəki iş yerindən götürüb, zorla deportasiya ediblər: "Artıq naxçıvanlılar qorxudan küçəyə çıxa bilmirlər ki, tutub geri göndərəcəklər. İnsanlar var ki, illərdir ailəliklə ev kiraləyib, Türkiyədə işləyirlər. Hamısı bir-bir deport olunur. Polislər iş yerlərini də gəlib yoxlayırlar. Bu zaman orada olan qaçaq işçiləri deportasiya edirlər. Türkiyədə oturumu olan çox sayda naxçıvanlı var ki, onlara toxunmurlar".

Qanuna görə, deportasiya olunanlara Türkiyədə qanunsuz yaşadıqları müddətdən asılı olaraq, 6 aydan üç ilədək bu ölkəyə giriş qadağası qoyulur.

Bəs bu problem Naxçıvandakı sosial vəziyyəti pisləşdirə bilərmi? Türkiyə ilə Azərbaycan arasında viza rejimi məsələsinə baxıla bilərmi?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Yeni Müsavat"a bildirdi ki, bu məsələ çox həssas məsələdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu məsələ qətiyyən qardaş Türkiyə dövləti tərəfindən azərbaycanlılara münasibətin dəyişməsi deyil. Nəzərə almaq lazımdır ki, Türkiyəyə Suriya və başqa qonşu dövlətlərdən yaşamaq üçün gələnlər olur. Ölkənin təhlükəsizliyi baxımından müəyyən addımlar atılırsa və ölkə qanunlarının tətbiqi haqqında da düşünülürsə, atılan addımları başa düşmək olar. Konkret olaraq Naxçıvandan olan insanların məsələsinə gəldikdə, müəyyən çətinliklər varsa, Azərbaycan dövləti ilə konsulluğumuzla məsələ çözülə bilər: "Naxçıvan sakinləri işsizlik ucbatından Türkiyəyə getmişdilər. Onların özləri də bildirirlər ki, qanunda onların illər öncə geri qayıtma müddətinin vaxtı çatmağına baxmayaraq onlara heç nə deyilməyib, onları ölkədən çıxarmayıblar. Sadəcə olaraq, son günlərdə onlara qanunun tələbi xatırladılıb. Yəni bizim vətəndaşlarımıza qarşı deportasiya tətbiqindən söhbət getmir. Onların ölkədən zorla çıxarıldığını iddia etmək doğru deyil. Uzun illərdir minlərlə naxçıvanlıya Türkiyə dövləti qucaq açıb, sahib çıxıb. Hətta çoxlu sayda vətəndaşlarımız Türkiyədə qalma müddətləri bitəndən sonra qalıb orada işləyib yaşayıblar. Yəni onlara həmişə doğma münasibət olub və bu gün də var. İndi müəyyən insanlar üç aylıq müddətləri başa çatdığı üçün Naxçıvana geri dönməlidirlər. Bu, qətiyyən azərbaycanlılara qarşı olan məsələ deyil. Geri qayıdan və qayıdacaq naxçıvanlıların işlə təminatı məsələsi önəmlidir. Əvvəlki Naxçıvan rejimi özlərinə lazım olan qədər əhalinin Naxçıvanda yaşamasında maraqlı idi. Qalan əhalinin Naxçıvandan çıxmasında maraqlı idi. İndi Naxçıvanda yerli hakimiyyət dəyişib. Naxçıvanın və onun əhalisinin çox ciddi potensialı var. Turizm, kənd təsərrüfatı, mədənlər potensialı və digər istiqamətlərdə potensialı var. Bunlardan istifadə edib Türkiyədə yaşamaq müddəti başa çatdığından geri qayıdan və qayıdacaq insanları işlə təmin etmək problem deyil. Belə olanda isə qətiyyən heç bir sosial durumun pisləşməsindən söz açmağa ehtiyac olmaz".

Viza rejimi məsələsinə gəlincə, məsələnin digər bir tərəfi Türkiyə ilə Azərbaycan arasında viza rejimi ilə bağlı məsələlərə yenidən baxmaq olar: "Konfederativ dövlətdə vətəndaşların yaşamaq hüquqları necə olursa, Türkiyə ilə Azərbaycan arasında viza rejimi məsələsini o səviyyəyə çatdırmaq lazımdır.

Naxçıvanın bundan əvvəlki iqtidarı camaatı o vəziyyətə salmışdı ki, kütləvi şəkildə qardaş Türkiyəyə köç edilmişdi. Hətta Naxçıvandan köçənlərin Türkiyədə kəndlər saldığı faktları var. İnsanlar Naxçıvandakı kəndlərinin adında Türkiyədə kəndlər qurublar. Onlara Türkiyə vətəndaşlığı verilməsi məsələsinə də baxmaq olar. Bu, artıq iki qardaş dövlət arasında yoluna qoyulacaq məsələdir".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Fərəc Quliyev: "Ölkənin təhlükəsizliyi baxımından müəyyən addımlar atılırsa, bunları başa düşmək lazımdır"



Hesablama Palatasının hesabatı - yeni həbslər olacaq?

Naxçıvan Şəhər İcra Hakimiyyətində yoxlamalar başa çatdırılıb. Azərbaycan Respublikası Hesablama Palatasının 2023-cü il üzrə İş Planına uyğun olaraq Naxçıvan Şəhər İcra Hakimiyyəti və onun tabeli təşkilatları üzrə dövlət vəsaitinin istifadəsinin auditi aparılıb. Audit 2021-2022-ci illəri əhatə edib və uyğunluq auditi formasında həyata keçirilib.

Nəzarət tədbiri nəticəsində 1.792.167 manat məbləğində artıq və qanunsuz əmək haqqı ödənilməsi, 564.407 manat məbləğində mal alışının əmtəəsiz sənədləşdirilməsi, 2.955.000 manat məbləğində vətəndaşlardan vəsaitin qanunsuz tələb edilməsi halları müəyyən edilib.

Auditlə həmçinin icra hakimiyyətinin tabeli qurumlarında küçələrin işıqlandırılması xərclərinin sayğac göstəricilərinə uyğun aparılmadığı, istehsalçılara satılmış suyun faktiki həcminin rəsmiləşdirilmiş göstəricidən nəzərəçarpacaq dərəcədə az olduğu, malların baha qiymətə rəsmiləşdirildiyi, dövlət əmlakından qanunsuz istifadə edildiyi və büdcəyə çatacaq vergilərin ödənilmədiyi də aşkar olunub.

Müəyyən olunmuş hüquqpozmalarda cinayət tərkibi əlamətlərinin ehtimal edilməsi nəzərə alınaraq Hesablama Palatasının Kollegiyası tərəfindən auditin nəticələrinə dair müvafiq materialların hüquq-mühafizə orqanlarına göndərilməsi qərara alınıb.

Həmin dövrdə adıkeçən icra hakimiyyətinə hazırkı başçı Mirsənani Seyidov rəhbərlik edib. O, 2018-ci ildən bu vəzifədədir.

Mirsənani Seyidov ötən ay iki müavinini vəzifədən uzaqlaşdırıb.

İcra hakimiyyətindəki mənbənin "Gündəlik Naxçıvan"a verdiyi məlumata görə, milyonlarla yeyintinin məsuliyyətinin məhz işdən çıxarılan bu şəxslərin üzərinə atılacağı ehtimal olunur.

Palatadan verilən məlumata görə isə yoxlamalar zamanı 1.792.167 manat məbləğindən artıq və qanunsuz əmək haqqı ödənilməsi, 564.407 manat məbləğində mal alışının əmtəəsiz sənədləşdirilməsi, 2.955.000 manat məbləğində vətəndaşlardan vəsaitin qanunsuz tələb edilməsi halları müəyyən edilib.

Auditlə həmçinin icra hakimiyyətinin tabeli qurumlarında küçələrin işıqlandırılması xərclərinin sayğac göstəricilərinə uyğun aparılmadığı, istehsalçılara satılmış suyun faktiki həcminin rəsmiləşdirilmiş göstəricidən nəzərəçarpacaq dərəcədə az olduğu, malların baha qiymətə rəsmiləşdirildiyi, dövlət əmlakından qanunsuz istifadə edildiyi və büdcəyə çatacaq vergilərin ödənilmədiyi də aşkar olunub.

Müəyyən olunmuş hüquqpozmalarda cinayət tərkibi əlamətlərinin ehtimal edilməsi nəzərə alınaraq, müvafiq materialların hüquq-mühafizə orqanlarına göndərilməsi qərara alınıb. Bu materiallar əsasında icra hakimiyyəti vəzifəlilərinə qarşı cinayət işinin açılacağı gözlənilir.

Bakı ABŞ-la bağlı mövqeyini sərtləşdirir

ABŞ həm erməni mövqeyinin ifadəçisi, həm də obyektiv vasitəçi roluna iddia edir; Amerika Azərbaycan siyasətinə "çəki-düzən" verməsə, münasibətlərində ciddi problem yaranacaq

ABŞ-ın Qarabağla bağlı son mövqelərinə, xüsusilə Xankəndidəki qondarma seçkiyə ağızucu reaksiyası, Senatda Qarabağdakı vəziyyəti erməniyanlıların müzakirəyə çıxarması, dövlət katibinin köməkçisi səviyyəsində "Qarabağ xalqı" ifadəsinin işlədilməsi Bakının ciddi və haqlı narazılığına səbəb olub.

ABŞ bu mövqelərə izah vermək əvəzinə, yeni bəhanələr axtarışdadır. Amma bu bəhanələr Vaşinqtonun heç bir arqumentini düz-əməlli göstərmir. Hətta Rusiya rəsmiləri belə "Dağlıq Qarabağ xalqı" ifadəsini işlətməyib. ABŞ-ın ATƏT-dəki səfiri Maykl Karpenter isə "AzadlıqRadiosu"na bildirib ki, Qarabağ məsələsində Rusiya ilə dialoq apara bilmirlər. O qeyd edib ki, Vaşinqton rusların tərəfləri müzakirəyə dəvət etdiyini bilir, Ermənistan və Azərbaycanın danışıqlarda iştirak edib-etməməsinə özləri qərar verib. "Rusiyanın Ukraynaya qarşı müharibəsi Rusiyanın iştirak etdiyi bir çox formatlara təsir edib, çünki Moskva beynəlxalq sistemin normalarını elə pozub ki, onunla əməkdaşlıq yollarını tapmaq çətindir. ABŞ Ermənistanla Azərbaycan arasında münasibətlərin, sərhədlərin tənzimlənməsinə, ədalətli və davamlı sülhün əldə edilməsinə diqqət yetirir. Ona görə də biz Ermənistan və Azərbaycanla ikitərəfli və üçtərəfli görüşlərdəyik, Avropa İttifaqının, xüsusilə də Avropa Şurasının prezidenti Şarl Mişelin səylərini dəstəkləyirik", - deyə Karpenter bildirib.

Xarici işlər naziri Ceyhun Bayramov ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ilə görüşündə də Bakının mövqeyini bir daha ifadə edib. Nazir ABŞ-ın qondarma rejimin bölgədə guya "humanitar böhran", "blokada" olması ilə bağlı səsləndirilən iddialara, Ermənistanın tirajladığı yalanlara uyaraq onları təkrarlamasının qəbuledilməz olduğu bildirib. Bu xüsusda, Ermənistanın bölgədə sülh və təhlükəsizliyə əsas təhdid olan, Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələrinin mövcudluğundan diqqəti yayındırmaq və beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə yaydığı əsassız iddiaların ötən günlərdə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimin çıxışında öz əksini tapmasının təəssüf doğurduğu bildirilib. ABŞ-la 1 sentyabr razılığına uyğun olaraq yolların paralel açılmasına Ermənistan və qondarma rejim tərəfindən maneçilik törədilməsinin Senatda ABŞ rəsmisi tərəfindən bəyan edilməməsinin vəziyyətə dair yanlış təəssürat yaratdığı vurğulanıb.



ABŞ bir tərəfdən erməni mövqeyinin ifadəçisi kimi çıxış edir, həm də obyektiv vasitəçi roluna iddia edir. Yada salaq ki, ABŞ Dövlət Departamentinin rəsmisi ötən həftə tərəflərin dialoqu davam etdirmək üçün Vaşinqtona getməyə hazır olduqlarını bəyan edib Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının 78-ci sessiyasında iştirak etmək üçün artıq Nyu Yorkdadır. Səfər zamanı nazir Ceyhun Bayramovun Baş Assambleyanın plenar sessiyasında çıxışı, sessiya çərçivəsində keçiriləcək tədbirlərdə iştirakı, habelə xarici dövlətlərin rəsmiləri ilə ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulur. Mümkündür ki, erməni xarici işlər naziri də ABŞ-ın vasitəçiliyi ilə görüş olsun. Amma belə görünür ki, ABŞ-ın haqsız və qərəzli mövqeləri Bakını daha sərt xətt tutmağa vadar edir. Gözlənilir ki, Ceyhun Bayramov ABŞ rəsmilərinin və dövlət qurumlarının qərəzli mövqelərini bir daha keçirdiyi görüşlərdə nəzərə çatdırsın. Vaşinqtonun Rusiya bəhanəsinə gəlincə, bəyənmədikləri ölkənin rəsmiləri, hətta prezident səviyyəsində Qarabağla bağlı Azərbaycanı narazı salacaq mövqe sərgiləmirlər.

ABŞ Azərbaycan siyasətinə "çəki-düzən" verməsə, münasibətlərində ciddi problem yaranacaq. Bu isə Qafqazda guya yeni siyasət sərgiləmək istəyən ABŞ-a fayda gətirməyəcək. Lakin elə sentyabrın 19-da ABŞ yüklərin Ağdam-Xankəndi və Laçın-Xankəndi yolları ilə eyni vaxtda keçməsini alqışladı və bunu irəliyə doğru mühüm addım hesab etdi. Bu barədə ABŞ dövlət katibi Entoni Blinkenin bəyanatında deyilir. Onun sözlərinə görə, ABŞ layiqli və davamlı sülhə nail olmaq üçün Azərbaycan və Ermənistanın səylərini dəstəkləyir. Bir yandan iki yolun açılmasını alqışlayan, digər tərəfdən isə Bakıya ittihamlar səsləndirən Dövlət Departamentinin bu davranışlarını heç cür izah etmək olmur.

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri Zaur Məmmədov hesab edir ki, son 1 ildə Bakıda bir çoxları Vaşinqtonda keçirilən görüşlərə ümidlər bəsləyərək Demokratlar Partiyasının tarixində ilk dəfə olaraq birisinə - məhz Entoni Blinkenin məsələyə obyektiv yanaşacağını düşünürdü: "Ədalət naminə qeyd edim ki, Vaşinqtonda bu il baş tutan xarici işlər nazirlərinin Blinkenin də iştirak etdiyi görüşlərdə çox yaxşı ab - hava yaranmış və ABŞ Dövlət Departamentinin rəhbəri 30 illik tarixdə öz sələflərindən fərqli olaraq daha rasional yanaşma orta qoyaraq Azərbaycanın tezislərinin əksəriyyətini nəinki qəbul etmiş, o cümlədən əsas prinsiplərin həyata keçirilməsi üçün əməli addımlar da atmışdı. Təəssüflər olsun ki, son zamanlar okeanın o tayındakı müəyyən qüvvələrin təzyiqi və səyi nəticəsində Blinken geri çəkilməyə qərar verdi. Lui Bononun Bakıda bağlı qapılar arxasındakı dedikləri Vaşinqton və Bakı arasında Senatda baş tutan çıxışdakı qərəzli ab-havanı yumşaltmadı, əksinə, daha da möhkəmlətdi. Hazırda Azərbaycanın ABŞ, Avropa İttifaqı və Rusiyadan eşitmək istədiyi ilk prinsip: ölkənin suverenliyinin və ərazi bütövlüyünün prioritetliyi, digər məsələlərə isə məhz bu aspektdən yanaşılması tələbidir. Təəssüf ki, son zamanlar Qərbin məsələlərə yanaşmasında ərazi bütövlüyü və suverenlik prinsipləri unudulur. ABŞ dövlət katibinin köməkçisi Kimin "Dağlıq Qarabağ xalqının hüquqları" terminindən istifadə etməsi, onun həmkarlarının hansı düşüncədə olduğunun göstəricisi idi. Senatdakı həmin çıxışlar zamanı amerikalı siyasətçilərin Qarabağdakı erməni rezidentlərinin hüquq və təhlükəsizliyi ilə bağlı Azərbaycan hökumətini az qala "soyqırımda" günahlandırmaları, onların Prezident İlham Əliyevin apardığı Qarabağ siyasəti ilə bağlı səsləndirdikləri fikirlər cəmiyyətimiz tərəfindən kəskin narazılıqla qarşılandı. Həmin çıxış və ondan əvvəl - sonra Vaşinqtonun məsələlərə yanaşması bu ölkənin Azərbaycanla bağlı beynəlxalq hüququ kənara qoyduğunun göstəricisidir".

Politoloqun fikrincə, Senatdakı dinləmələr zamanı Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı ifadəsini bir nəfər belə səsləndirmədi: "Əvəzində separatçı quldur dəstəsini müdafiə edən ifadələr yer aldı. Hamıya məlumdur ki, Ermənistanın əsas məqsədi Azərbaycan torpağında "Xilas naminə - azadlıq" şüarını beynəlxalq səviyyədə təbliğ edərək Kosovada olduğu kimi Qarabağın Azərbaycandan ayrılmasına nail olmaqdır. Senatda Laçın yolunun guya bağlandığı və Qarabağda ermənilərin ac olduğunu bildirən amerikalı senatorlar və hökumət nümayəndələri növbəti şouları ilə MDB məkanında öz imiclərini sual altına qoymuş oldular. Nəinki Azərbaycan ictimaiyyəti, o cümlədən separatçılıqdan əziyyət çəkən digər dövlətlərin hakimiyyətləri də Senatdakı bu çıxış fonunda okeanın o tayı ilə münasibətləri haqda düşünməli oldular. Fikir verin, iclas zamanı az qala cib dəsmalı ilə "ac erməni"lərin halına kövrələn siyasətbazlar nədənsə Ağdam yolu ilə bağlı susmağa üstünlük verdilər. Adama deyərlər, əgər humanitar yardım etmək istəyirsən və 30 000 insana görə pərişansansa, o zaman niyə Bakıya ərzaq göndərərək Ağdam vasitəsilə Xankəndinə yardım etmirsən? Əlbəttə, cavab bəllidir. Fransa və ABŞ humanitar fəlakət adlı şou ilə bölgədə erməni məsələsini aktuallaşdırmaq və öz oyunlarını oynamaq istəyirlər. Halbuki kim, kim, amma Blinken yaxşı bilir ki, əldə edilmiş razılıqlara əsasən sentyabrın 1-dən Ağdam-Xankəndi yolu açılmalı idi".

Analitik Elxan Şahinoğlu başqa bir məsələyə diqqət yetirərək qeyd edir ki, Nyu-Yorkda BMT Baş Assambleyanın 19-25 sentyabr tarixlərində əsas tədbirləri keçiriləcək: "Bu tədbirlər çərçivəsində Entoni Blinkenin vasitəçiliyi ilə Ceyhun Bayramovla Ararat Mirzoyanın görüşməsi mümkündür. Vaşinqton anlayır ki, indiki şərtlər altında sülh sazişinin imzalanması çətindir. Ancaq Dövlət Departamentində hesab edirlər ki, heç olmazsa intensiv görüşlər vasitəsilə Azərbaycanla Ermənistan arasında yeni toqquşmanın qarşısını ala bilərlər". **Onun sözlərinə görə, Ağdam-Xankəndi yolunun açılması Laçın yolundan istənilən yüklərin daşınması anlamına gəlməməlidir:** "Hər iki yoldan çatdırılması planlaşdırılan və bizə aid olmayan yüklərin gömrük və laborator yoxlanışı həyata keçirilməlidir. Qarabağ ermənilərinə Ermənistanın pul vahidinin və yanacağın keçirilməsinə icazə verilməməlidir. Bu ikisi olmadan erməni separatçıları işğal altındakı bölgəni idarə edə bilməyəcəklər. Qarabağ ermənilər qanunlarımıza tabe olmayana qədər təbii qaz və elektrik problemlərinin həll olunacağına da ümid etməməlidirlər".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

"Əsrin müqaviləsi"nin 29-cu ili - qazancımız nələrdir...


Sabiq nazir: "Bu müqavilə Azərbaycanın sonrakı illər ərzindəki bənzərsiz uğurlarının təməl daşı oldu"

Bu gün-sentyabrın 20-də Azərbaycanın dünya miqyasında iqtisadi və siyasi mövqeyinin möhkəmləndirilməsində, etibarlı, arzolunan tərəfdaş kimi nüfuz qazanmasında əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi"nin imzalanmasının 29-cu ili tam olur. 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanması regionda, eləcə də dünyada qarşılıqlı etimadın və geniş əməkdaşlığın təməlini qoydu.

İlham Əliyev illər öncə xalqa müraciətində bu məqamı xüsusi olaraq bildirmişdi ki, gəlin fərz edək, əgər 1994-cü ildə "Əsrin müqaviləsi" bağlanmasaydı, nə olardı, əgər çətin, ağır şəraitdə Heydər Əliyevin səyləri nəticəsində biz Bakı-Tiflis-Ceyhan neft kəmərinin tikintisinə başlamasaydıq, nə olardı? Azərbaycan hansı problemlərlə üzləşərdi? İndi Azərbaycanın dünyadakı mövqeləri necə ola bilərdi? Əlbəttə, bunu təsəvvür etmək çətin deyildir. Bu gün Azərbaycanın inamlı inkişafının əsas səbəbi məhz 1990-cı illərin ortalarında Ulu Öndər Heydər Əliyev tərəfindən başlanmış neft strategiyasıdır. Bu neft strategiyası böyük imkanlar yaratdı, bundan sonra da yaradacaq və bundan səmərəli istifadə edəcəyik. "Əsrin müqaviləsi"nin Qarabağ məsələsinə, yekunda torpaqlarımızın azad olunmasına təsirləri oldumu? Bəziləri iddia edir ki, Azərbaycan neftinin dünyaya çıxarılması ölkənin siyasi inkişafında mənfi rol da oynayıb. Bu iddialar nə dərəcədə əsaslıdır?

Sabiq maliyyə naziri, professor Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, Heydər Əliyev 1993-cü ilin sonları və 1994-cü ilin əvvəllərindən etibarən dünyada gedən siyasi və iqtisadi proseslərə peşəkar baxışları ilə Azərbaycanda zamanla səsləşən yeni iqtisadi strategiyanın əsasını qoydu. Ölkə daxilindəki siyasi çəkişmələrin məharətlə nizamlanması, iqtisadiyyatın hiperinflyasiya səviyyəsinin ram edilməsi və onun sonrakı inkişafını təmin edə biləcək qətiyyətli qərarların qəbulu Heydər Əliyev dühasının uğurları idi: "Əsrin müqaviləsi" Ulu öndər Heydər Əliyevin şah əsərlərindəndir. Neftin qiymətlərinin dünya bazarlarında 15-16 dollar olduğu bir dönəmdə Azərbaycanın dünya iqtisadi bazarına çıxışını təmin edən "Əsrin müqaviləsi"nin imzalanması isə ölkəmiz üçün inqilabı bir dönüşün başlanğıcı idi. Bu müqavilə Azərbaycan iqtisadiyyatının sonrakı illər ərzindəki bənzərsiz uğurlarının təməl daşı oldu.

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycan iqtisadiyyatına xarici investisiyaların axınına yol açıldı. Bu müqavilə ciddi iqtisadi tənəzzül yaşayan bir ölkənin iqtisadiyyatına xarici yatırımların cəlb edilməsinin ən uğurlu bir vasitəsinə çevrildi. 1993-cü ildə Azərbaycan iqtisadiyyatına heç bir xarici investisiya qoyulmasa da, artıq 1994-2000-ci illər ərzində bu



yatırımların ümumi həcmi 5,5 milyard dolları ötmüşdü. Ən maraqlısı isə o idi ki, yatırımların 2,2 milyard dolları ölkə iqtisadiyyatının qeyri-neft sektoruna yönəldilmişdi. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkədə aparılan iqtisadi islahatlar daha da sürətləndi. Müqavilənin imzalanmasından ötən bir ildən sonra ölkə iqtisadiyyatında yaranmış hiperinflyasiya 8-10% səviyyəsinə qədər endirilə bildi. Ölkə iqtisadiyyatına böyük həcmlərdə investisiya axını hesabına Azərbaycanda sənaye, tikinti, nəqliyyat-kommunikasiya və digər xidmət sahələri dirçəlməyə başladı".

Sabiq nazir qeyd etdi ki, "Əsrin Müqaviləsi" ilə başlayan Azərbaycanın yeni enerji strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək sonda Azərbaycanın dünya iqtisadi və siyasi müstəvisində xüsusi yerini formalaşdırdı: "Neft və qazın satışından əldə olunan milyardlarla dollar vəsait hesabına Azərbaycanda misli görünməyən quruculuq işlərinə rəvac verildi. Azərbaycan regionun ən güclü ordusunu yarada bildi. Ən müasir silahlarla təchiz edilmiş bu ordu, erməni işğalçılarının 30 ildə qurduğu müdafiə sədlərini 44 gündə yerlə yeksan etdi. "Əsrin müqaviləsi"nin nəticələri işğal olunmuş torpaqlarımızın azad olunması üçün çox ciddi əhəmiyyət kəsb edir. İqtisadiyyatı, maliyyə gücü zəif olan dövlət müasir ordu qura bilməzdi. "Əsrin müqaviləsi"nin gətirdiyi imkanlar Azərbaycanın iqtisadiyyatının, maliyyə gücünün 21-ci əsrin müasir ordusunu qurmağa şərait yaratmasında xüsusi rol oynadı. Bu gün Azərbaycan Cənubi Qafqaz iqtisadiyyatının 2/3-nə sahib bir dövlətdir. Regionda heç bir qlobal layihə onun iştirakı olmadan reallaşdırıla bilməz. Bütün bu uğurlar öz başlanğıcını "Əsrin müqaviləsi"ndən götürdü..."

❑ **Etibar SEYIDAĞA,**
"Yeni Müsavat"

Paşinyan amerikalı hərbçiləri ölkədə saxlaya bilər - qiyam qorxusu

ABŞ-la hərbi təlimlər başa çatsa da, İran mənbələri və ayrı-ayrı mütəxəssislər onların Ermənistandan getməyəcəyi qənaətindədir; **hərbi analitik:** "Amerikalı təlimçilər qalacaqlar və kəşfiyyat xarakterli işlər görüləcək"

ABŞ Ermənistan silahlı qüvvələrinə xarici düşmənlə döyüşmək üçün deyil, etirazları yatırmaq üçün təlim keçir. Ölkə.az-a xəbər verir ki, bu barədə İran mənbələri iddia irəli sürür. "Paşinyanın Amerika ilə ünsiyyətdə əsas məqsədi bəlli olur - burada amerikalı hərbi müşavirlərin erməni xüsusi təyinatlılarına qiyamçılarla mübarizə aparmaq və ictimai etirazları yatırmaq üçün təlim keçdiyini görürsünüz.



Çevrilişlə mübarizə üçün Ermənistan ordusunun ayrı-ayrı bölmələri də hazırlanır", - deyə təlim görüntülərinə əsasən bildirilir. İddiaya görə, Paşinyan əmindir ki, tezliklə devriləcək, ABŞ isə onun bu zəifliyindən istifadə edərək Ermənistan hökumətinə böyük ölçüdə nəzarət edə bildi: "ABŞ Ermənistanda Azərbaycana qarşı onlara kömək etmək üçün deyil, onlar bu fürsətdən istifadə edərək Ermənistana tam hakim olmaq istəyirlər". Yada salaq ki, deputat Qüdrət Həsənquliyev "Yeni Müsavat"a müsahibəsində ABŞ-Ermənistan hərbi təlimləri haqda danışmışdı. O, təlimlərin İrəvanda mer seçkisi ərəfəsi başlamasını təsadüfi saymamışdı: "Putin də çox gözəl başa düşür ki, bu hərbi təlimlər əslində Paşinyana açıq dəstək məqsədi daşıyır. Həm də ona əlavə təminatdır ki, birdən seçki günü və ya seçkidən sonra ara qarışsa, ABŞ hərbçiləri Paşinyanın təhlükəsizliyini təmin eləyə, dövlət çevrilişi cəhdinin qarşısının alınmasında iştirak edə, ən pis halda Paşinyanı ölkədən çıxara bilərlər. Ona görə təlimlər İrəvanın yaxınlığında keçirilir".

Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz isə deyib ki, ABŞ hərbçilərinin böyük bir qismi fərqli adlar altında Ermənistanda qala bilər: "Fikrimcə, ABŞ-ın göndərdiyi 85 hərbçinin böyük bir qisminin təlimdən sonra təlim-tədris, təşkilati işlər, hərbi məsləhətçi, müşavir və s. adlar altında Ermənistanda qalma və fəaliyyət göstərmə ehtimalı çox böyükdür. Bu, vəziyyəti daha qarışıq hala gətirəcək, Rusiyanı hiddətləndirəcək və ölkə daxilində hakimiyyət uğrunda mübarizəni qızışdıracaq. Hətta Ermənistanda qalacaq Amerika hərbçilərinin Avropa Birliyinin oradakı "mülki missiya"sının pərdəarxasında fərqli vəzifələr yerinə yetirən üzvləri ilə birlikdə fəaliyyət göstərəcəyini də təxmin etmək olar". Qeyd edək ki, hərbi təlimlər sentyabrın 20-də başa çatıb. Onların geri dönməyəcəyi haqda rəsmi məlumat yoxdur. Lakin iddialar nə qədər gerçək ola bilər? Qiyamı yatırmaq üçün təlim keçdikləri də maraq doğurur, əcəba Vaşinqton Ermənistanda çevriliş riski görürmü?

Xüsusən də son zamanlar Moskva - İrəvan xəttində kritik bir gərginlik hökm sürür. Tərəflər qarışılıqlı ittihamlara, söz duelinə, hətta təhqirlərə keçiblər. Paşinyanın KTMT əleyhinə çıxışları, "Ermənistan təhlükəsizlik məsələsində daha Rusiyaya arxalana bilməz" bəyanatları göstərir ki, həm Rusiyadan üz çevirirlər, həm Kremlin hərbi çevriliş edəcəyi ehtimalından qorxurlar. Nəzərə alsaq ki, Ermənistan ərazisində "Vaqner"çilərin olduğu haqda iddialar səslənməkdədir. Doğrudur, Rusiya və Ermənistan rəsmi səviyyədə bunu təkzib edib, Zaxarova mif adlandırıb, lakin erməni ekspertlər onların bəzilərini Gorusda gördüklərini iddia ediblər. Yəni Ermənistanda çevriliş riski hər an var və amerikalıların bu səbəbdən getməməsi istisna deyil.

Hərbi ekspert Telman Qasımov "Yeni Müsavat"a qeyd etdi ki, hərbi kontingent Ermənistandan gedəcək, amma onların strukturları qalacaq. T.Qasımovun sözlərinə görə, 85 nəfərlik amerikalı hərbçi ABŞ-ı qayıdacaqlar, təlimçilər isə oradan getməyəcəklər: "Orada məsələlər çoxdur. İlk növbədə Orduda kəşfiyyat xarakterli işlərin görülməsi, məsləhət verilməsi, NATO sisteminə uyğun standartlara hazırlıq, NATO silahları ilə bağlı təlimlər keçirilməsi bura daxildir. Artıq Ermənistan rus silahlarından üz çevirməyə başlayacaq. Ona görə də qarşıda Rusiya - Ermənistan münasibətlərində daha böyük gərginlik gözlənilir". Professor Qabil Hüseynli də əmindir ki, amerikalılar mütləq şəkildə bölgədə qalacaq: "ABŞ hansı regiondan çıxıb ki, Ermənistandan da getsin? Vaşinqtonun strateji nöqtələrindən biri Cənubi Qafqazdır. Ermənistanda amerikalıların hava desantçılarının sayı artırılacaq, şəxsi heyətə rəhbərlik üçün zabit və general yerləşdirilməkdədir. Bu faktlar göstərir ki, Amerika Ermənistanda yerləşib və burada hərbi bazası üçün bünövrə qoyub. Bununla da demək olar ki, Rusiyanın Ermənistandan çıxarılması prosesi artıq başlanmış sayıla bilər". Q.Hüseynlinin fikrincə, Ermənistan KTMT-dən nümayəndəsini geri çağırmaq haqda fikirləşir, Avrasiya və Gömrük ittifaqlarından çıxmaq barədə müraciətlər də edib: "Ermənistanın yaxın gələcəkdəki hədəflərindən biri də Rusiyanın hərbi bazalarını çıxarmaq olacaq. Beləliklə, Ermənistan birmənalı olaraq Rusiyadan uzaqlaşır və Qərbə inteqrasiya xəttini daha ardıcıl surətdə həyata keçirməyə başlayır. Amma baş verənlər gələcəkdə Ermənistanın Rusiyadan gözlənilməz sürprizlərlə qarşılacağı haqda fikirlər yürütməyə əsas verir".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

Ermənistan və havadarlarının "humanitar böhran" şousu bitdi

Ağdam yolunun açılması "blokada", "genosid" kimi cəfəng iddiaları sabun köpüyü kimi əritdi

Ermənistanın, Qarabağdakı xunta rejiminin "blokada", "genosid" kimi cəfəng iddiaları sabun köpüyü kimi əriməkdədir. Düzdür, hələ də ermənilərin çirkli pulları ilə qidalanan çevrələr, senatorlar bu saxtakarlıqları tirajlamaqdan yorulmurlar, amma Azərbaycanın haqlı tələbləri addım-addım reallaşır və günün birində bütün sərsəm iddialara nöqtə qoyulacaq.

Bu mənada Ağdam-Xankəndi yolunun açılması şübhəsiz ki, Azərbaycanın qələbəsidir. Son 3 ay ərzində Azərbaycan bu yolun əhəmiyyətini həm Ermənistana, həm beynəlxalq ictimaiyyətə anlatmağa çalışdı. ABŞ-da keçirilmiş son görüşdə sentyabrın 1-dən paralel şəkildə yolların işə salınacağı razılaşdırılsa da, Qarabağdakı separatçıların qalıqları buna imkan vermədilər. ABŞ, Fransa kimi ölkələr isə razılaşmanın tələblərinin yerinə yetirilməsinə səy göstərmək əvəzinə, Azərbaycana çox ciddi təzyiq yolunu tutdular və yalnız Laçın yolunun açılmasını tələb kimi irəli sürməyə başladılar. Rusiyanın və Qızıl Xaçın yüklərinin bu yolla Xankəndinə yola düşməsi Azərbaycanın növbəti dəfə düz olduğunu, ona təzyiq etməyin mümkünsüz olduğunu hamıya göstərdi.

Beləliklə, Azərbaycan dövlətinin tələblərinə uyğun şəkildə Ağdam-Xankəndi yolu ilə yüklərin daşınmasına başlandı, bundan sonra Laçın yolu ilə də yük maşınının keçidi təmin edildi. Qarabağdakı terrorçuların, Ermənistanın buradakı tör-töküntülərinin 19 sentyabrdakı növbəti şərəfsiz, xain hücumu, insan itkilərinə səbəb olan terroruna lazımi cavablar verilir və davamı olacaq. Amma paralel şəkildə Azərbaycan dövləti mülki əhaliyə xətər yetirmək niyyətində olmadığını bəyan edib, rəsmi qurumlar bu barədə açıqlamalar yayıblar. Məqsəd Azərbaycan ərazisində yaşayan dinc əhalini milliyyətindən asılı olmayaraq, terrorçu xunta rejiminin əsarətindən xilas etməkdir, bu barədə səsgücləndiricilər vasitəsilə də Xankəndi sakinlərinə müraciətlər edilir. Bu fakt bir daha sübut edir ki, Azərbaycanın nəinki ermənilər "genosid" etmək, hətta onlara hansısa humanitar problem yaşatmaq niyyəti də yoxdur. Əks təqdirdə, 3 həftədir Azərbaycanın unla dolu yük maşınları Ağdamda Əsgəran yolunun açılması üçün gözləməzdi. Azərbaycan haqlı olduğunu bir daha sübuta yetirdi və ermənipərəst çevrələri fakt qarşısında qoydu. İndi ABŞ, Fransa və bu sırada olan digər ölkələr nə vəziyyətdə qaldıqlarını başa düşürlərmi? Azərbaycanın qətiyyətli addımlarına qarşı təxribatlar ola bilərmi?

Ermənişünas alim, professor Qafar Çaxmaqlı "Yeni Müsavat"a bildirdi ki, kimsənin, hansısa ölkə və ya beynəlxalq təşkilatın tutduğu mövqedən asılı olmayaraq Azərbaycanın özünün doğru bildiyi gerçəklər var: "Ardıcıl şəkildə o yolu getməklə uğur əldə etməyin mümkün olduğunu Azərbaycan dəfələrlə sübut edib. Bu dəfə də Azərbaycan öz ərazisində haradan yol verəcəyini özü müəyyənləşdirdi. İndi Xankəndi -Ağdam yolu müzakirə mövzu olmaqdan çıxdı. Bununla paralel Laçın-Xankəndi yolunun da hansı statusla işləyəcəyini dirəniş göstərənlər qəbul etmiş oldular. Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bütün problemlərin həllinin məhz Azərbaycan dövlətinin iradəsindən asılı olduğunu Amerikası da , Fransası da gördü. Arxasına bu dövlətləri alan və onların maraqları doğrultusunda hərəkət edən Ermənistan bundan sonra da təxribatlar törədəcək, sülh müqaviləsini uzatmağa çalışacaq". **Q.Çaxmaqlı qeyd etdi ki, oktyabrın 5-də Qrenadada görüşə Ermənistan sülh müqaviləsi mətni ilə getmir:** "Bunu Paşinyan deyir. O zaman bu görüşün nə mənası var? Qarşıdakı günlərdə Azərbaycana qarşı yeni təzyiqlərin olacağını istisna etmirəm. Qərb Azərbaycanın əli ilə Rusiyanı bölgədən çıxarmaq cəhdlərində bulunacaq. Amma bunlar bir nəticə verməyəcək".



Politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra regionda yeni bir nizam yaradıb: "Bu, sülhə və təhlükəsizliyə xidmət edir. Amma Ermənistan tərəfi Qarabağa iddialar və burada separatçıları dəstəkləməyi davam etdirdi. Təbii ki, Azərbaycan buna imkan verə bilməzdi. Laçın yolunda nəzarət buraxılış məntəqəsinin qurulması Ermənistanın iddialarına və separatizmə böyük zərbə vurdu. Ermənistanın və separatçıların Laçın yolunun əvvəlki vəziyyətinə, silah-sursat daşımaq üçün başlatdığı humanitar souya Fransa və digər ölkələrdə müəyyən dəstək versələr də, nəticədə bunun heç də belə olmadığını Azərbaycan sübut etdi. Məhz Azərbaycan daima Laçın yolunun humanitar məqsədlər üçün açıq olduğunu deyirdi və mülki ermənilərin giriş-çıxışının təmin edildiyi də ortada idi. Təbii ki, burada siyasi məqsədlər güdülürdü. Ancaq Azərbaycan ona imkan vermədi. Ağdam-Xankəndi yolunun açılması Azərbaycanın buradan "Qızıl Xaç"a məxsus yüklərin keçidini həyata keçirməsi, həmçinin paralel olaraq Laçın yolundan istifadə Azərbaycanın siyasi qələbəsidir". **Politoloqun fikrincə, ABŞ və Fransanın mövqeyi demək olar ki, Azərbaycanın prinsipial siyasəti nəticəsində fiaskoya uğrayıb:** "Azərbaycan özü daxili işini müəyyən edir və heç bir ölkə bu məsələyə qarışa bilməz. Separatçıların "dövlət naziri" təyin etmək oyunları da nəticə verməyəcək. Görünür, hələ də Ermənistan və Fransa dəstəyini nümayiş etdirir. Ağdam-Xankəndi yolunun açılması göstərir ki, Azərbaycan reinteqrasiya siyasətini uğurla davam etdirəcək. Xankəndidə separatçılar və silahlı dəstələr demək olar ki, axırlarını yaşayırlar. Azərbaycan öz ərazisində "boz zona"nın qalmağına dözümlü yanaşmayacaq".

Qeyd edək ki, ABŞ Dövlət katibi Entoni Blinken Ağdam-Xankəndi yolunun açılmasına reaksiya verib. "Birləşmiş Ştatlar bu gün həm Laçın, həm də Ağdam yolları ilə Qarabağa mühüm humanitar yüklərin daşınmasını alqışlayır", - Blinken özünün X sosial şəbəkə hesabında bildirib.

Azərbaycan məsələlərin dinc tənzimlənməsi üçün əlindən gələni etdi, hətta 44 günlük müharibədə qalib olduğu halda, yenə də qarşı tərəfin təxribatlarına təmkinli reaksiyalar göstərdi. Ancaq görünür, artıq bıçaq sümüyə dirənib. Biz yolları açdığımız, bərpa etdiyimiz halda, bizə qarşı alçaq terrora əl atanlarla danışmağın heç bir mənası qalmadı. Bəli, bu qədər təzyiqlərə rəğmən, Ağdam-Xankəndi yolunun açılması Azərbaycanın qələbəsidir. Amma düşmən və havadarları bu qələbəni həzm edə bilmədi, son terror aktları da bunun nəticəsidir. Cavablarını alacaqlar!

Allah Ordumuzu qorusun!

❑ **Elşad PAŞASOY,**

Ermənistan sülh prosesindən tamamilə imtinanı planlaşdırır

"Ermənistan 2020-ci ilin noyabrında Rusiyanın vasitəçiliyi ilə üzərinə götürdüyü öhdəliklərdən geri çəkilmək, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzrə müttəfiqindən uzaqlaşıb Qərbə üz tutmaqla çox təhlükəli oyun oynayır. Prosesdə maraqlı olan tərəflər Ermənistanın baş naziri Nikol Paşinyanı rus ruleti oynadığına inandırmalıdır".

Bunu "Report"a açıqlamasında Moskvada yaşayan amerikalı politoloq, siyasi elmlər üzrə fəlsəfə doktoru Endru Korıbko deyib.

Onun sözlərinə görə, bu addımlar Azərbaycanı güzəştlərə məcbur etmək üçün oynanılan oyunun bir parçasıdır.



Ekspert hesab edir ki, Ermənistanın izlədiyi hazırkı yol özündə başqa bir münaqişəyə təhrik etmə riski daşıyır: "Bu addımların yeganə ağlabatan izahı odur ki, ya Ermənistan Fransa kimi ölkələrdən qeyri-rəsmi də olsa, təhlükəsizlik zəmanəti aldıqdan sonra sülh prosesindən tamamilə imtina etməyi planlaşdırır, ya da bütün bunlar Azərbaycanı güzəştlərə məcbur etmək üçün oynanan oyunun bir parçasıdır. Hər halda, bu, böyük məsuliyyətsizlikdir və başqa özündə bir münaqişəyə təhrik etmə riskini daşıyır".

E.Korıbko qeyd edib ki, heç kim İrəvanı nəyin hərəkətə gətirdiyini dəqiq deyə bilməz.

"Hətta Paşinyanın özünün də ağlında son həmlə olmaya bilər. Ancaq bütün hallarda o, Azərbaycanla sülh müqaviləsi bağlamağın qəti əleyhinə olan ultra-millətçi Fransa və ABŞ mərkəzli erməni diasporunun marionetinə çevrilib.

Bu əcnəbi etnofaşistlər isə başqa bir müharibənin olub-olmamasına əhəmiyyət vermirlər, çünki müharibə baş versə, birbaşa təsirlənməyəcəklər, lakin Ermənistanda yaşayan "soydaşları" görünməmiş bir fəlakətlə üzləşəcəklər. Ona görə də bu ssenarinin qarşısının alınması vacibdir və bunun üçün prosesdə maraqlı olan tərəflər Paşinyanı inandırmalıdırlar ki, rus ruleti oynayır", - deyə siyasi şərhçi əlavə edib.

Həmsöhbətimiz Kremlin Ermənistana reallığı göstərmək üçün əlindən gələni etdiyini, lakin Ermənistanın Qərb meylinə görə bu addımların nəticəsiz qaldığını diqqətə çatdırıb: "Ona görə də sülh prosesini yoluna qaytarmaq üçün lazım olanı etmək Qərbin və xüsusən də ABŞ-ın üzərinə düşür. Lakin təəssüflər olsun ki, oradakı bəzi siyasətçilər erməni diaspor lobbisinin təsiri altına düşüblər və münaqişənin qeyri-müəyyən müddətə kimi dondurulmuş qalması xülyası onlara daha cəlbedici gəlir.

Ancaq bu, səhv hesablama olardı, çünki Azərbaycan onilliklər boyu davam edən bu problemi ideal olaraq sülh yolu ilə həll etməkdə qərarlıdır. ABŞ ya bütün azərbaycanlıların alqışları altında Qarabağ münaqişəsinin diplomatik yolla sona çatmasında tarixi rol oynaya bilər, ya da onların narazılığına məruz qala bilər".

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

İranın Azərbaycanla barışıq hazırlığı - iki mühüm qərar gözləntisi

Ekspertlərə görə, Tehran Bakı ilə münasibətlərdə maraqlıdır, ona görə də yenidən yumşalma xəttini tutdu, amma...

Həftəsonu xarici işlər naziri Ceyhun Bayramovla İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir-Abdullahian arasında yenə telefon danışığı olub. Telefon danışığı zamanı son həftələrdə iki ölkə arasında baş prokurorlar, eləcə də hərbi sahədə yüksək səviyyəli görüşlərin və qurumlararası təmasların Azərbaycan-İran münasibətlərinin inkişafı istiqamətində verdiyi töhfə yüksək qiymətləndirilib.

Nazirlər arasında eyni zamanda iki ölkə arasında münasibətlərin tam normallaşması üçün atılması zəruri olan tədbirlər müzakirə olunub. Belə görünür ki, İranın Bakı ilə barışıq hazırlığı azərbaycanlı tələbənin azadlığı, terrorçuya ağır cəza kəsilməsi vədindən başlamaq istəyindədir. Güman ki, bundan sonra İran səfirliyinin işinin qismən bərpası və məhdud saylı diplomatımızın qayıdışı mümkün ola bilər.

Rəsmi Tehrandan gözləntilər olduğu bir vaxtda isə İran parlamentinin Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədr müavini Şəhriyar Heydəri sərsəm fikirlər səsləndirib. O, Ermənistanla sərhədi qorumağı qırmızı xətt adlandıraraq Azərbaycanı hədələyib.

"Azərbaycan problemlərini diplomatiya yolu ilə həll etsin", - Heydəri qeyd edib.

Deputat deyib ki, İranın hazırda Ermənistanla 47 kilometr ümumi sərhədi var və bu məsələ İran üçün çox vacibdir. Çünki Ermənistan vasitəsilə Avropaya çıxışları var.

O həmçinin vurğulayıb ki, Ermənistanın ərazi bütövlüyünə hörmət edilməsi də İranın qırmızı xəttinin bir hissəsidir: "Bizim üçün aydın məsələdir ki, bu ölkə sabit və təhlükəsiz olmalıdır. Lakin təəssüf ki, Azərbaycan "sionist rejim", Türkiyə və Səudiyyə Ərəbistanı ilə əməkdaşlıq edərək bölgənin coğrafiyasını dəyişməyə çalışır. Azərbaycan öz qərarlarına yenidən baxmalıdır. Ən yaxşı yol diplomatiya yoludur, əgər Azərbaycan "sionist rejim" və ABŞ-ın İran sərhədləri yaxınlığında mövcudluğu istiqamətində hərəkət edərsə, İran mütləq reaksiya verəcək".

Göründüyü kimi, Tehran yüksək post tutan iranlı diplomatın dilinin dinc saxlamasına nəzarət edə bilmir.

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov Azərbaycanın heç bir dövlətə güzəştə getməyəcəyini bildirdi: "İran bizə qonşu dövlət olsa da, İranda on milyonlarla soydaşımız yaşasa da, bu dövlət bizim səmimi dostumuz olmayıb və heç vaxt ola da bilməyəcək. Çünki İranın regional və milli maraqları ilə bizim regional və milli maraqlarımız üst-üstə düşmür. Torpaqlarımızın işğal altında saxlandığı dövrdə ermənilərlə qardaşlıq nümayiş etdirən, onları silah-sursat və yanacaqla təmin edən bir ölkə bizə necə dost ola bilər ki? Biz İranla, sadəcə, qonşu kimi müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlıq edə bilərik. Azərbaycan hökuməti buna həmişə hazırdır. Çünki qonşu ölkələrlə belə davranış bizim dövlətimizin xarici siyasətinin fəlsəfəsini təşkil edən əsas xətlərdən biridir. Lakin haqqımızı tapdalayan, suverenliyimizə kəm baxan heç bir dövlətə güzəştə gedə bilmərik.

Bir qədər öncə Tehrandakı səfirliyimizdə baş vermiş terror aktına çox yarıtmaz bir münasibət bəsləyən İran Azərbaycan hökuməti tərəfindən ciddi şəkildə qınandı. Terror törətmiş adamı zindana atmaq əvəzinə, ondan dövlət televiziya kanalında müsahibə alınması bizə əsas verdi deyək ki, bu terror aktında İran hökumətinin əli var. Baş vermiş bu hadisədən sonra iki ölkə arasında diplomatik əlaqələrin dondurulmasına qədər yol açılsa da, İran hökuməti terrorçunun cəzalandırılması istiqamətində heç bir addım atmaq istəmədi".

Sabiq nazir son günlərdə münasibətlərdə yaşananları müsbət elementlərdən biri kimi qəbul edir: "Son günlər münasibətlərdə yaranmış buzun əridilməsi istiqamətində İranın təşəbbüslərini Azərbaycan hökuməti təbii ki, müsbət qarşılayır. Həbs olunmuş azərbaycanlı tələbənin azadlığa buraxılması, səfirliyimizdə terror aktı törətmiş şəxsin ciddi cəzalandırılacağı ilə bağlı bəyanatlar, iki ölkə arasında münasibətlərin nizama düşməsi üçün yaxşı perspektivlər açır.

Bütün bu baş verənlər İran-Azərbaycan münasibətlərində pozitiv haldır. Lakin ortada bir sual dolaşır. Nədən yaxın günlərə qədər Zəngəzur dəhlizinin açılmasına qarşı çıxan və bu məsələdə Ermənistandan da aqressiv mövqe sərgiləyən İran, birdən-birə Azərbaycanla münasibətlərin yaxşılaşdırılması istiqamətində addımlar atmağa başladı. İranın mövqe dəyişikliyinin başlıca səbəbi, Ermənistanın öz ərazisində ABŞ-la birgə hərbi təlimlər keçirməsidir. İran qardaş dediyi Ermənistandan bunu gözləmirdi. O, sərhədlərinə yaxın ərazilərdə Amerika hərb maşınını heç bir formada görmək istəmir.



İndi İrana da əyan olsun ki, erməni deyilən məxluqlar üçün müqəddəs heç nə olmur. Onlar öz maraqları üçün kimin əlində alət olmaq lazımdırsa, onun da əlində alət olurlar. İran başbilənləri bir tarixə nəzər salsınlar - ermənilər onları qoynuna almış Türkiyəyə, Azərbaycana xəyanət etdilər, onlara dövlət vermiş Rusiyaya xəyanət etdilər. İndi də növbə ermənіləri qucağında gəzdirən İrana çatdı. Heç kim unutmasın ki, ermənilər sabah Fransaya da, ABŞ-a da məmnuniyyətlə xəyanət edəcəklər..."

Azad Vətən Partiyasının sədri Akif Nağı cənub qonşumuzun Azərbaycandan bu cür qətiyyətli mövqe gözləmədiyini qeyd etdi: "Azərbaycan bütün cəhdlə İranı düzgün əməkdaşlıq müstəvisinə cəlb etməyə çalışır. Amma İrandan qarşılıq görmür. Tehran qeyri-stabil, bəzən isə çox primitiv siyasət yeridir, üstəlik, Azərbaycandan bu siyasətə xoş münasibət gözləyir, bunu görməyəndə inciyir. Məlum qanlı olay, gəncin həbsi və digər hadisələrdən sonra xeyli müddət münasibətlərdə sərt gərginlik hökm sürdü. Azərbaycan İranın gözləmədiyi qətiyyətli mövqe nümayiş etdirdi, geri çəkilmədi. Tehran Azərbaycanla münasibətlərdə maraqlıdır, ona görə də yenidən yumşalma xəttini tutdu. Bu ölkə həm Azərbaycanla münasibətləri normallaşdırmaq istəyir, həm də primitiv davranışlarından geri çəkilmir. Bugünlərdə parlamentin komissiya sədri "qırmızı xətt" iddiası ilə çıxış etdi. Guya Ermənistanla sərhədlərinin qorunub saxlanılması və Ermənistanın ərazi bütövlüyü bunlar üçün "qırmızı xətt" imiş. Bu, məntiqsiz bir mövqedir, izahları da gülüncdür. Guya Ermənistan vasitəsilə Avropaya çıxırmışlar. Ermənistan özü Türkiyə vasitəsilə Avropaya çıxır. Bunların Ermənistan üzərindən Avropaya neçə çıxdıqları məlumdur. Və Avropaya çıxmaq istəyirlərsə, bunun üçün niyə Türkiyə ilə Azərbaycanı seçmirlər? Qarabağda məscidləri dağıdan ermənilərlə niyə bu qədər yaxınlıq edirlər? Ermənistanın ərazi bütövlüyü bunlar üçün niyə bu qədər əziz olub? Bunları sualdan daha çox ittiham kimi səsləndirirəm. Əhalisinin 50 faizinin azərbaycanlılardan ibarət olduğu bir ölkə bu cür erməni sevdası ilə danışmamalıdır. Deməli, Tehran anti-Azərbaycan mövqeyindən geri çəkilməyib. Ona görə də münasibətlərin normallaşmasından danışmaq mənasızdır. Səfirliyimizin fəaliyyəti bərpa oluna bilər. Amma bununla münasibətlərin nizama salınacağından danışmaq yersizdir. Tehran hələ də regionun lideri olan Azərbaycan Respublikası və İranda əksəriyyət təşkil edən azərbaycanlı faktorları ilə hesablaşmaq istəmir. Bu dönüş baş verəndən sonra yeni münasibətlərdən danışmaq mümkün olacaq".

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"

İranlılar indi də Ermənistan parlamentinin binasını təmir edir

Ermənistan parlamentinin binasının təmiri və bərpasına iranlı mütəxəssislər cəlb olunub. AzVision.az xəbər verir ki, bu barədə sosial şəbəkələrin erməni seqmentində məlumat yayılıb.

Parlamentin ictimaiyyətlə əlaqələr və kommunikasiya departamentinin rəhbəri Laura Antonyan "Joxovurd" qəzetinə müsahibəsində məlumatı təsdiqləyib. O qeyd edib "Arev, Luys, Cascade" ixtisaslaşmış lift şirkəti tenderdə qalib gəlib. Onlar parlamentdə liftlərin dəyişdirilməsi üçün ən aşağı qiymət təklif ediblər.

"Bu şirkət həm də lift istehsalı ilə məşğuldur. Onların iki iranlı mütəxəssisi var ki, həmin şəxslər quraşdırma ilə bağlı problemlərin yaşanmaması üçün texniki işlərə cəlb olunublar. İki iranlıdan başqa, təşkilatda altı erməni də var. Yəni liftlərin quraşdırılması ilə cəmi 8 nəfər məşğul olur", - Antonyan nəşrə bildirib.

Xatırladaq ki, qəzet bundan öncə yayboyu parlamentdə aktiv təmir işləri aparılması barədə məlumat yaymışdı. Qeyd dilirdi ki, açıq səma altında kafe üçün sahə hazırlanıb, komitə iclaslarının keçiriləcəyi otaqlar təmir olunub. İndi isə parlamentin liftlərinin dəyişdirilməsi qərarı verilib.

"Akşam" qəzeti: "İran bu səbəbdən Zəngəzur dəhlizinə qarşı çıxır"

"İran Türkiyə və Azərbaycan güclənməsin deyə Zəngəzur dəhlizinə qarşı çıxır. Bu gün İran bölgədə Türkiyəyə qarşı bir çox fəaliyyətin arxasında dayanır. Öz rejimini, maraqlarını sırımaq üçün nə lazımdırsa edir".

Bu barədə Türkiyənin "Aksam" qəzeti yazıb.

"Biz bunu Azərbaycanda görürük. İran ermənilərlə əməkdaşlıq edir. Onların arxasında durur. İran ermənilərə dəstək verir, maneə ardınca maneə yaradır. İran Suriyadan Türkiyəyə gələn təhlükəyə qarşı duracağını istehza ilə iddia edir. Təbii ki, mümkün deyil" - deyə nəşr yazır.

Məqalədə Rusiyanın da fəaliyyətinə toxunulub. Bildirilib ki, Rusiya Suriya rejiminin qoruyucusudur: "Suriyanın şimalında terrora qarşı 30 kilometrlik təhlükəsizlik kəməri quracağına söz verib, sonra bunun qarşısını almaq üçün əlindən gələni etdi. YPG və PKK ilə də təmasdadır. Onlara güvənmək və addım atmaq mümkün deyil".



Cahid Şəfa oğlunun xatirəsinə

Zamin HACI
zaminhaci@gmail.com

"Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyətləri müəyyən edilmiş daha 10 nəfərin adı açıqlanıb". Sonra xəbərin içindən adları oxuyuram və bir ada çatanda dayanıram: "Nağıyev Cahid Şəfa oğlu"...

Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində doğulmuşdu, 1993-cü ildə Füzuli uğrunda gedən döyüşlərdə həlak olub. Cahidin haqqında internetdə axtarış versəniz, bu cür qısa informasiyalardan özgə nəsə çıxmır. Bir də naməlum "Üçtəpə əməliyyatında" iştirak edərkən öldüyü yazılıb. Bu əməliyyat haqda mənbələrdə heç nə tapmadım.

Cahidlə mən eyni kənddə doğulmuşuq. Məndən 3-4 sinif yuxarı oxuyub, o üzdən əlaqələrimiz, ünsiyyətimiz olmayıb. Heç indi o bəstəboy, qarayanız oğlanın sifət cizgilərini də yadıma dəqiqliklə sala bilmirəm. 30 il ötüb. Az deyil ki. Yurdlarımızın, kəndlərimizin sifəti də bu 30 ildə amansız savaşın zərbəsindən tanınmaz haldadır. Öncə obaların skeletini tapdıq, indi qurbanlarımızın sümüklərini tapırıq...

Cahidin atası Şəfa kişinin də sifəti yadıma düşmür. Ancaq qəribədir, yaxasında çəkicə bənzər işarə olan sovet dəmiryolçusu geyimi yadımda qalıb. Şəfa bəy dəmir yolunda çalışırdı. Kəndimizin ortasında, qeyri-rəsmi mərkəzində, Axan kişigilin (indi düşünürəm, obamızda nə qəribə adlar varmış, halbuki biz o zaman bu adlara təbii yanaşırdıq, hətta bizim kənddə azı 2 Axan adlı kişi vardı) təndir yanacağı - tənək çubuqları tökdüyü yerdə camaat toplaşardı, ordan-burdan söhbətləşərdilər. Kinogöstərən Əzizağanın afişa vurduğu telefon direyi də oradaydı. Bir gün kəndin ünlü zarafatcılları - Vahid Əlifoğlu, Yaşar müəllim, Zakir kişi və başqaları yenə ora toplaşmışdı, Şəfa kişi yaxınlaşdı, dedi şeir yazmışam. Adını çəkdiyim qrup bir növ kəndin poetik redaktorları idi, Şəfa bəy də onların rəyini öyrənmək istəyirdi. Şeiri oxudu. Qısa bir bənd idi, açığı, son illərə qədər xatırlayırdım, artıq unutmuşam və Molla Nəsrəddinin məşhur "Qızılgüllər arasından boylanırdı qaratoyuğun balta dişi" misrası tipində şeir idi. Ona görə "redaktorlar" Şəfa kişi ilə məzələnmək qərarına gəldilər. Dedilər əla şeirdir, lakin sənə təcili ədəbi təxəllüs lazımdır, çünki sənət yoluna qədəm qoyursan. Dərhal təklif də gəldi: "Qoy olsun Şəfa Küskün". Şəfa kişi incidi: "Küskün niyə oluram? Ailəm, uşağım, işim-gücüm..." Sanki bunu gözləyirmişlər, ikinci təklif verildi: "O zaman Şəfa Gülsüm olsun". Şəfa kişi zarafat obyekti olduğunu başa düşüb sakitcə aralaşdı - onun arvadının adı Gülsüm idi.

O zaman hələ Cahid ölməmişdi. O zaman hələ, necə deyərlər, dünyanın düz vaxtıydı. Heç, deyəsən, müharibə də başlamamışdı. İndi mən başqa məsələləri düşünüb narahat oluram: 30 ildir Cahid itkin sayılırdı, bu 30 ildə mən niyə Şəfa kişini itirib-axtarmamışam? O cümlədən Gülsüm xanımı. Bu adamlar 30 il harada yaşayıblar, dərd-sərlərini necə yola veriblər, Cahid haqda kimlərə danışıblar? Şəfa kişi sağdırmı? Oğlunun cəsədinin tapılmasını necə qarşılayıb?

Dostum, həmkəndlim, qazi Şükrana zəng edirəm. Belə işləri bizim kənddə ondan yaxşı bilən yoxdur. "Deyəsən, Şəfa kişi də, Cahidin anası da rəhmətə gedib". O da dəqiq bilmir. Ancaq Şükran heç olmazsa son günlərində, son saatlarında Cahidlə yanaşı olub: "Füzuli şəhəri yaxınlığında OZM minasının partlayışından öldülər. Gecə, qaranlıq idi, cəsədlərini çıxarda bilmədik. Sabah da mövqeyi tamamilə itirdik. 30 ildir hər dəfə yadıma düşür, peşman oluram ki, kaş nə cür olur-olsun, gedib Cahidin meyitini çıxaraydım".

Kimdənsə, uşaq vaxtı eşitdiyim bir təyin də yadımda qalıb: "Kosanın yanında semiçka çırtlayanda allergiya verir, üzü səpir". Kənd yerində hərəyə bir ayama qoşarlar, Cahidin ayaması Kosa idi. Bir şəhidi belə ayamasıyla xatırlamaq ədəbsizdirmi? O cümlədən allergiyasını xatırlamaq. Bilmirəm. Ancaq bunlar olub axı. Bunlar hər birimizin insani tərəflərimizdir.

Cahiddən 30 il sonra xəbər gələndə mən də özümün "insani" tərəfimin unutqanlıq olduğunu anladım və dilxor oldum. Bağışla, Cahid. Bağışla, Şəfa dayı, Gülsüm xala...

Səbrin bitdiyi gün: sonuncu terrorçu təslim olana qədər davam...

Azərbaycanın davamlı çağırışlarına və addımlarına baxmayaraq, işğalçı Ermənistan və onun Qarabağdakı tör-töküntüləri vəziyyəti gərginləşdirmək istiqamətində növbəti xain terrora əl atdılar.



Xəbər verdiyimiz kimi, ötən gecə Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonundan keçən 58-ci kilometrliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının öldürülməsi ilə nəticələnmiş terror hadisəsinin baş verdiyi əraziyə gedən polis əməkdaşları - 1994-cü il təvəllüdlü Camalzadə Asim Knyaz oğlu, 1987-ci il təvəllüdlü Şirinov Ramil Arif oğlu, 1991-ci il təvəllüdlü Mahmudov Seymur Elsevər oğlu və 1998-ci il təvəllüdlü Zamanov Xəzər Azər oğlu ermənilərin yerləşdirdiyi minaya düşərək şəhid olublar. Füzuli rayonu ərazisində DİN-in yük avtomobilinin aşması nəticəsində üç polis əməkdaşı hadisə yerində həyatını itirib, 6-sı müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Bu terror aktının yüklərin daşınması üçün Azərbaycanın Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması ilə bağlı humanist addımından sonra törədilməsi ondan xəbər verir ki, erməni terrorçuları və onların himayədarları reinteqrasiya prosesinin başlanacağından ehtiyatlandığı üçün qanlı yola əl atmağı məqbul saydılar. Azərbaycanın günahsız insanlarına qarşı terror aktları xalqımızda qəzəb hissi doğurub və dövlətimizin hiddətinə səbəb olub. Təbii ki, bütün bunlar Azərbaycan dövləti tərəfindən sərt reaksiyaya səbəb olmalıydı. Odur ki, səhər saatlarında Azərbaycan Müdafiə Nazirliyi Qarabağda lokal xarakterli antiterror tədbirlərinə başlanıldığı barədə açıqlama yaydı. **Məlumatda bildirilir:** "Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqelərinin müxtəlif çaplı silahlardan sistemli şəkildə atəşə tutulması, ərazilərimizin minalanmasının davam etdirilməsi, döyüş mövqelərinin mühəndis cəhətdən təkmilləşdirilməsi, eləcə də səngər və sığınacaqların sayının artırılması gərginliyin artmasına səbəb olub". Məlumatda bildirilib ki, bu xüsusda, döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, bölmələrin yüksək döyüşə hazırolma səviyyəsinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyinə sızaraq minalardan təmizlənmiş ərazilərin və mülki təyinatlı yolların terror-təxribat məqsədilə yenidən minalanması kimi əməllər tərəfimizdən aparılan müşahidələrlə təsbit edilib.

"Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuşdur. Həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışdır. Bu kimi faktlar Ermənistanın Azərbaycana qarşı apardığı məqsədyönlü və planlı terror siyasətinin davamıdır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi dəfələrlə bayan etmişdir ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb". **Açıqlamada bildirilib ki, tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır.** "Bir daha bildiririk ki, mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır. Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb", - nazirlikdən qeyd olunub.

Antiterror əməliyyatı ilk gün: erməni mövqeləri darmadağın edilir

Gün ərzində separatçı-terrorçu rejimin qanunsuz hərbi birləşmələri, həmçinin Ermənistanın Azərbaycan ərazisində qalmış hərbi texnika və şəxsi heyəti nöqtəli zərbələrlə darmadağın edilib.

Azərbaycanın Qarabağ bölgəsində Kərkicahan-Xəlfəli yolunda (Ağdərə) Ermənistan Silahlı Qüvvələrinin postu dağıdılıb. Musavat.com xəbər verir ki, bu barədə görüntüləri "Caliber" yayıb.

Xocalı rayonu və Qırmızı Bazar istiqamətində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin döyüş mövqeləri, uzunmüddətli atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri bölmələrimizin sərrast atəşi nəticəsində məhv edilir. Musavat.com xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Teleqram kanalları isə Azərbaycan Ordusunun düşmənin dördüncü separatçı snayper briqadasını məhv etdiyini xəbər verib. Eyni zamanda son aylarda erməni terrorçularının Rusiya hərbi komntingentinin müşayiəti ilə silah-sursat daşıdığı Xəlfəli-Xankəndi yolundakı postu darmadağın edilib.

Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus radiolokasiya stansiyası məhv edilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilir ki, sentyabrın 19-u Xocavənd rayonu istiqamətində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinə məxsus P-18 radiolokasiya stansiyası (RLS) bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

"Azərbaycan dövləti" mülki əhali və infrastruktur obyektləri hədəfə alınmır, yalnız legitim hərbi hədəflər sıradan çıxarılır". Bu barədə Musavat.com-a Azərbaycan Müdafiə Nazirliyindən (MN) məlumat verilib. Qeyd edilib ki, üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb.

Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutur.

Müdafiə Nazirliyindən verilən məlumatda deyilir ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülür.

Ermənistan Silahlı Qüvvələrinin Xankəndi şəhərindəki elektron döyüş alayı hədəfli zərbə nəticəsində məhv edilib. Musavat.com xəbər verir ki, bu barədə görüntüləri "Caliber" yayıb.

(davamı səhifə 9-da)



Bir gündə erməni diversiya qruplarının törətdiyi mina terroru nəticəsində 7 polis və iki mülkü şəxsin həlak olması Azərbaycanın səbrini daşırdı-antiterror əməliyyatı mülkü erməniləri deyil, ölkəmizə düşmən kəsilən silahlıları və onların istehkamlarını məhv edir; Türkiyədən tam dəstək gəldi, Rusiyanın reaksiyası...

(əvvəli səhifə 8-də)

Azərbaycan Xarici İşlər Nazirliyi də durumla bağlı rəsmi məlumat yayıb. Məlumatda deyilir ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar. "Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. Görülən tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır" - XİN bəyan edib. Bildirilib ki, görülən tədbirlərin hədəfi müstəsna olaraq qanunsuz hərbi birləşmələr və hərbi infrastrukturdur: "Heç bir halda Azərbaycan tərəfi mülki əhalini hədəf almır. Bu xüsusda, erməni mülki əhalinin hərbi hədəflərdən uzaq durması zəruridir. Azərbaycan tərəfi dəfələrlə bəyan edib ki, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu davam etdirməsi regional sülh və sabitlik üçün ciddi təhlükə mənbəyidir. Bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması, qondarma rejimin buraxılmasıdır".

Erməni əhaliyə müraciət

Azərbaycan Müdafiə Nazirliyi daha bir zəruri açıqlama ilə çıxış edib. Bildirilib ki, tədbirlər çərçivəsində yalnız legitim hərbi obyektlər və hərbi infrastruktur dəqiq silahlarla hədəfə alınır və sıradan çıxarılır. "Yaşayış yerlərinin yaxınlığında atəş vasitələrinin Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən yerləşdirilməsini nəzərə alaraq ərazidə olan mülki əhalini hərbi obyektlərdən kənar durmağa və Ermənistan silahlı qüvvələrinin birləşmələrinə dəstək olmamağa çağırırıq. Bu barədə mobil SMS xidməti vasitəsilə Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinə məlumat göndərilib. Eyni zamanda səsgücləndirici texniki vasitələrlə əhali xəbərdar edilir və məlumat vərəqələri paylanılır. Azərbaycan Respublikasının qanunlarına və beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq təhlükəsizliyinə zəmanət verilən inzibati, sosial, təhsil, tibbi, dini və digər obyektlərin mühafizə və müdafiəsi təşkil olunacaq. Qadınlar, uşaqlar, qocalar, habelə fiziki məhdudiyyətli şəxslər və xəstələrə lazımi tibbi və digər yardımlar göstəriləcək, onlar içməli su və ərzaqla təmin olunacaq. Əhalinin təhlükəli ərazidən təxliyəsini təmin etmək üçün Laçın yolu üzərində və digər istiqamətlərdə humanitar dəhliz və qəbul məntəqələri yaradılıb", - açıqlamada deyilir.

Beynəlxalq reaksiyalar

Avropa İttifaqı növbəti dəfə Bakı ilə Xankəndini danışıqlara çağırmaqla anormal davranış nümayiş etdirib. Baş verənlərə Rusiyadan da reaksiya gəlib. "Problemi həll etmək üçün nə etmək lazım olduğunu bilirik". Musavat.com xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə Ermənistanın baş nazirinin Rusiya sülhməramlı kontingentinin Dağlıq Qarabağda tapşırığın öhdəsindən gəlməməsi barədə bəyanatını XİN-in necə dəyərləndirməsi ilə bağlı sualı cavablandırarkən bildirib. O qeyd edib ki, problemi həll etmək üçün razılaşdırılmış işləri yerinə yetirmək, gərginləşdirməmək, onu sakitləşdirmək və həll etmək üçün çalışmaq, götürülən öhdəliklərin yerinə yetirilməsi baxımından məsuliyyətli olmaq lazımdır.

Onun sözlərinə görə, Rusiya tərəfində vasitəçi qismində danışıqlar prosesində iştirak edən hər kəs bundan danışır: "Biz İrəvandan fərqli bəyanatlar gördük, məsələn, Ermənistanın yeni baş naziri 2020-ci il oktyabrın 7-də bəyan etdi: "Dağlıq Qarabağ Azərbaycanın tərkibində ola bilməz və heç vaxt olmayacaq, bu, artıq istisna edilib, 100 faiz". Sonra başqa bir şey dedi".

Qardaş Türkiyə: "Qarabağ türkündür, türkün olacaq!"

Qardaş Türkiyə növbəti dəfə Azərbaycanın yanında olduğunu bəyan edib. Sentyabrın 19-da Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənovla Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler arasında telefon danışığı olub. Azərbaycan Müdafiə Nazirliyi bu barədə məlumat yayıb. General-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri barədə həmkarını məlumatlandırıb. Cənab Y.Güler Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu bildirib. "Türkiyə hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanındadır". "Qarabağ yalnız Azərbaycanın deyil, türkündür, türkün olacaq!" Bunu Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının rəhbəri Dövlət Baxçalı siyasi təşkilatın toplantısında bildirib. Partiya lideri vurğulayıb ki, Ermənistan odla oynamamalıdır.

Paşinyan və separatçı lider təlaşda

Nikol Paşinyan hökuməti səhər saatlarında Qarabağda Ermənistan qoşunu olmadığını bəyan etsə də, sonradan İrəvandakı etirazların ardınca fərqli mövqedən çıxış etməyə başlayıb. Təhlükəsizlik Şurasının iclasını çağıran, xalqa müraciət ünvanlayan Paşinyan yenə də sərsəm iddialarla çıxış edib. Heç şübhəsiz, İrəvandakı mer seçkilərini uduzan N.Paşinyan indi daha çox öz kürsüsünü qorumağa çalışır, ona görə də "sülhməramlı" görünməyə çalışarkən qəfildən radikallaşır.

Separatçıların lideri Samvel Şahramanyanın Qarabağdan qaçmağı planlaşdırdığı barədə məlumat yayılıb. Rusiyanın Qarabağdakı canişini Ruben Vardanyan isə zirzəmidə gizləndiyini etiraf edib. Ermənilər etiraf edirlər ki, Azərbaycan Ordusu 44 günlük müharibədə olduğu kimi zərbələr endirir.

Vəziyyətin bu həddə gəlməsində erməni separatçı-terrorçu dəstələrin, xunta rejiminin günahkar olduğunu bəzi normal düşüncəli ermənilər də etiraf edir. "Bakı iki dəfə danışmağa dəvət etdi, amma qəbul etmədilər. Humanitar yardım təklif etdi, onu da qəbul etmədilər. Ən yaxşı şərtlərlə inteqrasiya təklif etdi, lakin yenə də qəbul etmədilər". Bunu erməni bloger İşxan Verdyan Teleqram kanalında yazıb. "Onlar bombaları qəbul edəcəklər. Daşnaklar ancaq bombanın dilini başa düşürlər. Bəli, əslində ancaq bomba dilində də danışırlar", - o bildirib

Ermənilərin Azərbaycanın guya mülki əhalini hədəfə alması barədə saxta məlumatlarına Azərbaycan Müdafiə Nazirliyindən cavab verilib. "Bəzi erməni sosial media resurslarında guya Azərbaycan Ordusunun bölmələrinin mülki obyektləri atəşə tutması barədə yayılan məlumatlar tamamilə yalandır, dezinformasiya xarakteri daşıyır", - nazirlik bəyan edib. "Bir daha bildiririk ki, bölmələrimiz tərəfindən mülki əhali və mülki infrastruktur obyektləri hədəfə alınmır, yüksək dəqiqlikli silahların tətbiqi ilə yalnız legitim hərbi hədəflər sıradan çıxarılır", - nazirlikdən qeyd olunub.

Siyasi partiyalardan dövlətə tam dəstək

Siyasi partiyalar Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror tədbirlərinə dəstək bəyanatı qəbul edib-lər. "Azərbaycanın siyasi partiyaları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünün və əhalinin təhlükəsizliyinin təmin olunması, erməni silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması, işğaldan azad edilən torpaqlarımızda məskunlaşan minlərlə soydaşımızın təhlükəsizliyinin təmin olunması üçün həyata keçirdiyi siyasəti və verdiyi hərbi əmri dəstəkləyir, onun ətrafında sıx birləşdiyimizi bəyan edirik. Xalqımızı Vətən müharibəsində olduğu kimi bu şərəfli işdə də həmrəyliyə, Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı dəstəkləməyə çağırırıq", - deyə bəyanatda bildirilir.


Ordumuz antiterror tədbirlərini davam etdirir.

Dövlətimizə, Ordumuza, Ali Baş Komandanımıza inanır, güvənirik!

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"



YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023



Covidin yeni variantı bu gün olmasa da, Azərbaycana gələcək

Avropa, Rusiya, hətta qonşu ölkələrdə aşkarlanan Omikronun yeni alt variantı Erisin Azərbaycanda yayılması riski var. Səhiyyə Nazirliyinin müəxəssis-eksperti, infeksionist Vasif Əliyevin açıqlamasına görə, hazırda Azərbaycanda koronavirusun "Eris" variantının yayılması barədə rəsmi məlumat yoxdur.

"COVİD-19-un yeni ştamı, həmçinin qrip, digər respirator infeksiyalar nisbətən yüngül formada keçdiyindən xəstələr əksər hallarda test vermək üçün xəstəxanaya və poliklinikalara müraciət etmirlər, ev şəraitində simptomatik müalicə alırlar. Bu isə öz növbəsində belə infeksiyalara yoluxmuş insanların rəsmi qeydiyyata alınmasını çətinləşdirir.

"Vətəndaşlarımıza bildirmək istərdim ki, bütün respirator infeksiyalardan qorunma tədbirləri eynidir. Sanitar və gigiyenik qaydalara riayət edilməsi vacibdir. Bura sosial məsafənin gözlənilməsi, xəstə insanın ev şəraitində izlənilməsi, əl təmizliyi kimi qaydalar və s. aiddir".

Hazırda Azərbaycanda COVİD-19-un yeni ştamlarının aşkarlanması faktı təsdiqlənməyib. "Trend" xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Tibbi xidmətlərin inkişafı departamentinin Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva deyib.

O qeyd edib ki, dünyada bundan öncə də COVİD-19-un müxtəlif variantları müşahidə edilib.

"Bilmək lazımdır ki, yeni yaranan ştamlar heç zaman öz sələfindən daha ağır olmur. Sadəcə, EG.5-in digər ştamlardan əsas fərqi yoluxuculuq qabiliyyətinin daha yüksək olmasıdır. Bu isə kütləvi yoluxmalara və xəstəlik hallarının artmasına səbəb ola bilər. Əgər ölkəmizdə EG.5 virusu qeydə alınsa, COVİD-19-un yoluxma hallarında artım olacaq. Lakin cəmiyyətin böyük əksəriyyəti bu xəstəliyi keçirib və sağalıb. Eyni zamanda Azərbaycanda koronavirusa qarşı peyvəndlənmə göstəriciləri qənaətbəxş səviyyədədir. Ölkəmizdə hər zaman vaksinlərlə bağlı beynəlxalq tibbi qurumların tövsiyələri nəzərə alınır. Ancaq Ümumdünya Səhiyyə Təşkilatının bu ştama qarşı xüsusi tövsiyələri açıqlanmayıb.

Hər zaman olduğu kimi,COVİD-19-un bütün mutasiyalarına qarşı həssas əhali risk qrupuna daxildir. Xroniki problemlərdən əziyyət çəkənlər, yanaşı xəstəlikləri olan şəxslər, COVİD-19-a qarşı peyvəndlənməyən insanlar xüsusilə diqqət etməlidir. Onlara ictimai yerlərdə tibbi maskadan istifadə etmələri, dezinfeksiyaya fikir vermələri məsləhət görülür. Bu insanlar üçün müəyyən qədər təhlükə hər zaman mövcuddur ", - deyə o əlavə edib.

Covidin yeni variantı bu gün olmasa da, Azərbaycana gələcək, o səbəbdən əhalinin diqqətli olması lazımdır.



Dərmanlarla bağlı yeni qərar: hələ ki ucuzlaşma yoxdur

Hökumət qərarını verdi, bəs kommersiya maraqları qiymətlərə təsir edəcəkmi?

Tarif (qiymət) Şurası iclasda hazırkı vaxtadək təsdiq edilmiş bütün dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı həd olaraq tətbiq edilməsi barədə qərar qəbul edib.

Bu qərar qəbul olunanadək dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin vahid qiymətə satılırdı. İndi isə həmin vahid qiymətlər yuxarı həd olaraq təsdiq edilib, yəni dərmanlar təsdiq olunmuş qiymətlərdən aşağı qiymətə satıla bilər. Qərar sentyabrın 15-dən qüvvəyə minib.

Son illərdə ölkədə bir çox dərman preparatlarının qiymətinin bahalaşması, üstəlik, keyfiyyətinin aşağı düşməsi, bu azmış kimi, bəzi əczaçılıq məhsullarının yoxa çıxması, qıtlığının yaranması ilə bağlı narazılıqlar yaranıb. Tarif (qiymət) Şurası dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə qərarlar qəbul etsə də, problemlər hələ də var. İnzibati tədbirlərə baxmayaraq, bəzi dərman preparatlarının qiyməti az qala 2-3 dəfə artıb. Belə ki, bəzi işbazlar ölkəyə gətirdikləri dərman vasitələrini və digər əczaçılıq mallarını istədikləri qiymətə təklif edirlər. Bəzi hallarda isə süni qıtlıq yaratmaqla dərmanların bahalaşmasına nail olurlar.

Qeyd edək ki, Azərbaycanda əczaçılıq sənayesinin inkişafı üçün dövlət tərəfindən zəruri infrastruktura (elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri) malik Pirallahı Sənaye Parkı yaradılıb. Artıq 5 sahibkarlıq subyekti ixtisaslaşmış Pirallahı Sənaye Parkının rezidenti kimi qeydiyyata alınıb.

Artıq bir şirkət tərəfindən göbələk əleyhinə, şəkərli diabet, qan-damar sistemi və digər xəstəliklərin müalicəsində istifadə olunan 11 dərman vasitəsinin ("Fungipar", "Diasmet", "Rosapar" və s.) istehsalına başlanıb və hazırda həmin dərman vasitələri satışdadır.

Bəs yeni qərarın əhali üçün konkret əhəmiyyəti nə olacaq? Bəlkə aptek sahibləri qiymətləri heç yuxarı həddən aşağı salmayacaq? Ümumi bahalaşma fonunda kommersiya maraqları imkan verəcəkmi? Ümumiyyətlə, apteklər yeni qərardan xəbərdardırmı, ucuzlaşan dərman varmı?

"Neftçilər" metrostansiyasının yaxınlığında yerləşən bir neçə aptekdə olduq. Bəzi aptek işçiləri bu haqda məlumatlı olduqlarını, lakin hələlik hansısa dərmanın qiymətində yenilik olmadığını bildirdilər. Alıcılar isə hələ də apteklərdə vahid qiymət olmadığını, ayrı-ayrı apteklərdə xüsusən də soyuqdəymə qarşı olan dərmanların qiymətində nisbi də olsa fərqlilik olduğunu, bunun üçün də daha ucuz qiymət təklif edən apteklərə üz tutduqlarını dedilər.

"Artıq payız gəlir, havalar soyuyur, havalar soyuyan kimi də adətən qrip və soyuqdəymə əleyhinə olan dərmanların qiyməti artır. Məsələn, soyuq havalarda "Teraflyu" dərmanından çox istifadə edirik. Bu qış mövsümündə onun qiyməti anidən bahalaşdı. Amma hələ ki qiymət artımı yoxdur, ümid edirik də ki, olmayacaq", - deyə satıcılardan biri qeyd etdi.



Millət vəkili Rəşad Mahmudov vurğulayıb ki, daha əvvəllər dərmanların qiyməti Tarif Şurası tərəfindən təsdiqlənsə də, burada vahid qiymət var idi: "Bu gün isə bu vahid qiymətlər orijinal dərman şirkətlərinin qəbul etdiyi optimal qiymət səviyyəsində tutularaq aşağı həddə hər hansı bir sədd qoyulmayıb. Bu da zaman içərisində fərqli dünya istehsalçılarının ölkəmizdə rahat şəkildə, daha uyğun qiymətə dərmanlarının satılması, qeydiyyatdan keçmələri üçün imkan yaradır.

Tarif Şurasının əvvəlki qərarı dərmanlarda yuxarı hədlə birlikdə aşağı həddə də bir əngəl yaradırdı. Amma bugünkü qərarda yuxarı hədd limiti qoyulub, aşağıda isə ucuzlaşdırma ilə əlaqədar daha yumşaq hərəkət olunması üçün şərait yaradır. Bundan əlavə, bu, dərman vasitələri haqqındakı qanunun yaratmış olduğu imkanlardan biridir. Bu, ölkədə qeydiyyat sisteminin əvvəlki illərə görə dəfələrlə rahatlaşdırılması, müddətin qısaldılması, lazım olan bürokratik sənədləşmənin beynəlxalq standartlara uyğunlaşdırılması və sürətli şəkildə həyata keçirilməsini də özündə ehtiva edir. Fərqli ölkələrdən ölkəmizə dərman vasitələrinin gətirilməsinin rahatlaşdırılması, Avropada və ölkəmiz tərəfindən qəbul olumuş bir çox ölkələrdə qeydiyyatdan keçmiş dərman vasitələrinin ölkəmizdə qeydiyyatının daha sürətli aparılmasına imkan yaradır. Bunlar keyfiyyətli, uyğun qiymətə dərmanlara əlçatanlığın təmin edilməsinə xidmət edir".

Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli isə qeyd edib ki, Tarif Şurasının qərarı ilə dərmanları təsdiq olunmuş qiymətlərdən aşağı almaq mümkün olacaq: "Bu qərar qəbul olunana qədər dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin vahid qiymətə satılırdı. Məsələn, hər hansı bir dərman vasitəsinin qiyməti 10 manat olaraq təsdiqlənərdisə, bu, vahid qiymət hesab olunurdu və bütün apteklərdə 20 manata satılmalı idi. Yeni qərardan sonra isə təsdiq olunmuş satış qiymətləri yuxarı hədd hesab olunur. Yəni artıq 10 manat həmin dərman vasitəsinin maksimal qiyməti sayılır və aptekdə onu 20 manatdan aşağı qiymətə almaq olar. Hesab edirəm ki, bu qərar dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılmasına, bu sahədə daha əlverişli rəqabət mühitinin yaradılmasına və əhali tərəfindən dərman vasitələrinin tənzimlənmiş qiymətlərdən aşağı alınmasına imkan verəcək".

Səhiyyə komitəsinin üzvü qeyd edib ki, bu qərarla həm də əczaçılıq şirkətləri ölkə ərazisində qeydiyyata alınmış dərman preparatlarını rahatlıqla sata biləcəklər: "Ölkəyə daxil olmuş dərman preparatlarının satışı ilə məşğul olan şirkətlər bir-biri ilə rəqabət aparacaqlar. Nəticədə isə daha ucuz və qeydiyyatdan keçmiş, dövlətin keyfiyyətinə nəzarət etdiyi dərmanların idxalı daha da stimullaşacaq. Bu isə nəticədə əhalinin daha ucuz və keyfiyyətli dərman preparatına əlçatanlığını təmin edəcək. Əvvəl konkret olaraq qiymət var idi. Bu, əhali üçün deyil, əczaçılıq şirkətləri üçün əlverişli idi. Təsdiq olunmuş dəyişikliklər fərqli bir rəqabət mühitinin formalaşmasına gətirib çıxaracaq".


"Ankara" klinikasının baş həkimi Zülfüqar Yusifov "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, qiymətlərin stabil qalması biznes şəraiti üçün müəyyən əngəllər törədir: "Sahibkarlar yeni qərarla azad sahibkarlıq şəraitində keyfiyyət, xidmətlə yanaşı, həm də qiymət siyasətini də cəlbedici edə biləcəklər. Təbii ki, yeni qərar qiymətlərin bahalaşmasına əsas vermir, bununla bağlı narahatçılığa dəyməz. Çünki məlum olduğu kimi, yuxarı hədd müəyyənləşib. Aptek sahibləri də yəqin ki, qiymət siyasətindən doğru istifadə edərək, öz məhsullarını müştərilər üçün daha əlverişli olmasına çalışacaqlar. Hesab edirəm ki, sonda bu rəqabət böyük ehtimalla vətəndaşın faydasına xidmət edəcək. Hər halda, bu qərar haqqında yaxın gələcəkdə daha doğru fikir söyləməyə imkan verəcək. Amma bazarın stimullaşması baxımından hesab edirəm ki, maraqlı və təqdirəlayiq qərardır".

Tibb elmləri doktoru, professor Adil Qeybulla isə qeyd edib ki, Tarif Şurasının yeni qərarı ondan ibarətdir ki, konkret olaraq dərman preparatlarının maksimum qiyməti nəzərdə tutulub. Yəni heç bir halda, heç bir şəraitdə dərmanların qiyməti göstərilən maksimum həddən baha qiymətə satıla bilməz: "Məlum olduğu kimi, ayrı-ayrı apteklər yerləşdiyi yerdən asılı olaraq fərqli arenada xərcləri ödəyirlər ki, bu da dərmanların qiymətində özünü göstərir. Burada sui-istifadə halları da ola bilir. Beləliklə, yeni qərar həm də aptek işçilərinin və yaxud dərman firmalarının süni şəkildə qiymətləri artırmasının qarşısını almaq üçün nəzərdə tutulan tədbirdir".

❑ **Xalidə GƏRAY,**
Fotolar müəllifindir,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

Son günlər rəsmi Bakı tez-tez Qarabağdakı boz zonalar haqda danışır. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də deyib ki, Azərbaycan öz ərazisində hər hansı bir "boz zona"nın olmasını qəbul etməyəcək.



Azərbaycanın "Kolumbiyası" - antiterror əməliyyatını labüd edən əsas səbəb

"Boz zona"lara qarşı yeganə effektiv mübarizə üsulu antiterror əməliyyatının keçirilməsidir

"Boz zona"lara qarşı yeganə effektiv mübarizə üsulu antiterror əməliyyatının keçirilməsi idi...

Sentyabrın 19-da Müdafiə Nazirliyi antiterror tədbirləri çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektlərin yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılmasına başlayıb.

Keçirilən tədbirlər barədə Rusiya sülhməramlı kontingentinin komandanlığı və Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin rəhbərliyi məlumatlandırılıb.

Beləliklə, "boz zona"nın mövcudluğu Azərbaycanı antiterror addımlar atmağa sövq etdi.

Qeyd edək ki, "boz zona"lar nəzarətsiz ərazilərdir və hansı dövlətin ərazisindədirsə, ora təhlükə mənbəyi olaraq qalır. Bu ərazilər sivil qanunlar işləməyən və cinayətkar qruplaşmaların müəyyənləşdirdiyi qaydalarla idarə olunaraq onların maraqlarına xidmət edən bir məkana çevrilir. Həm də "boz zona"larda yaşayan insanlar müəyyən qrup separatçı və ya terrorçunun əsirinə çevrilir, onların çirkin planlarının icraçıları olurlar.

Belə yerlər dünyanın ayrı-ayrı qitələrində mövcuddur. Məsələn, Latın Amerikasında, Kolumbiyada, Peruda və Boliviyanın bəzi bölgələrində belə yerlər var. Bu "boz zonalar"dan gələn əsas transmilli təhlükələr narkotiklərin qanunsuz dövriyyəsi, silah ticarəti, terror təşkilatlarının filiallarının və separatizm ocaqlarının fəaliyyəti ilə bağlıdır. Azərbaycan da belə təhlükə ilə uzun illər üzləşmiş ölkələr sırasındadır. Məlum olduğu kimi, Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyi 30 ildə həmin əraziləri "boz zona"ya çevirmişdi. Düzdür, Azərbaycan 3 il əvvəl öz gücü ilə ərazilərində "boz zona"nın aradan qaldırılması üçün hərəkətə keçərək oranı terrorçulardan və narkotacirlərdən azad etdi. Müəyyən xarici qüvvələr Azərbaycan ərazisində "boz zona"nın qalmasına çalışırlar. Aydın idi ki, Qarabağdakı həmin "boz zona"nı yalnız antiterror əməliyyatı ilə ləğv etməliyik. O cümlədən Azərbaycan delimitasiya olunmamış sərhədlərdə hansısa "boz zona" yaradılma ehtimallarını əsla qəbul etməyəcək".

Deputat Azər Badamov antiterror əməliyyatını qaçılmaz sayır: ""Boz zona"lar nəzarətsiz ərazilərdir. Bu ərazilərə müəyyən qruplaşmalar və ya separatçılar tərəfindən nəzarət olunur. Dünyada Latın Amerikası, Afrika və digər ölkələrdə də "boz zona"lar mövcuddur. "Boz zona"lar narkoticarətin və qanunsuz silah ticarətinin mənbəyi olduğundan bu, bütün cəmiyyət üçün böyük təhlükədir.

Azərbaycan torpaqları Ermənistanın işğalı altında olduğu dövrdə "boz zona"ya çevrilmiş, sərkisyan və köçəryanların əsas gəlir mənbəyi olub. Bu ərazilərdə narkotik bitkilər əkilib, xüsusi laboratoriyalar fəaliyyət göstərib, Avropaya və Rusiyaya narkotik tranziti həyata keçirən ərazilər kimi fəaliyyət göstərib. Azərbaycan torpaqlarını işğaldan azad etməklə öz ərazisində narkoticarətin qarşısını almış oldu. Burada qeyri-qanuni silahlıların nəzarəti altında erməni əsilli sakinlər girovluqda qalır və separatçıların qurbanına çevrilirlər. Çox təəssüf ki, Qarabağda "boz zona"nın qalmasını dəstəkləyən dairələr var. Onlar bu "boz zona"nın köməyi ilə Cənubi Qafqazda sabitliyin və sülhün olmasının qarşısını almaqla öz təsiri altına salmağa çalışırlar. Azərbaycan öz ərazisində "boz zona"nın olmasına heç vaxt imkan verməyəcək. Bu gün biz Qarabağda yaşayan ermənilərə dialoq təklif edirik və humanitar yardımların çatdırılmasına imkan yaradırıq. Amma separatçılar silahı yerə qoymadı və Azərbaycan qanunlarına tabe olmadılarr, bu da ərazilərdə antiterror əməliyyatının aparılması labüd etdi. Bunun Azərbaycanın öz suveren hüquqlarının təmin olunması üçün vacib olduğunu hesab edirəm".

Siyasi analitik Asif Nərimanlı Qarabağdakı "boz zona"ları iki aspektdən dəyərləndirir: "Beynəlxalq təcrübədə "boz zona"ları iki müstəvidə təsnif etmək mümkündür, sosioloji və siyasi. Sosioloji aspektdə "boz zona"lar adətən bir ölkənin sərhədləri daxilində narkokartellərin mövcud olduğu ərazilərə aid edilir. Bu ərazilərdəki əhali də ora nəzarət edən qruplaşmaların girovluğunda olur. Buna qarşı mübarizəyə hüquq-mühafizə orqanlarının keçirdiyi əməliyyatla yanaşı, həmin ərazidə qalan əhalinin də cinayətkar qruplaşmalara qarşı səfərbər edilməsi və s. daxildir. Siyasi aspektdə isə adətən münaqişə bölgələrində ortaya çıxan zonalar daxil edilir. Yəni cinayətkar-terrorçu qruplaşmalar nəinki ölkə qanunvericiliyinə tabe olmur, hətta siyasi iddialarla suverenliyə təhdidlər yaradır. Qarabağdakı "boz zona" hər iki aspektdən dəyərləndirilə bilər. Laçın postunun qurulmasına qədər uzun illər bu ərazidə qaçaqmalçılıq, silah və narkotik alveri həyata keçirilir, əldə olunan gəlirlər separatçı-terrorçu rejimin saxlanılmasına sərf edirdi. Azərbaycan bunun qarşısını aldı, lakin erməni əhalisinin separatçıların girovluğunda qalması məsələnin sosioloji müstəvidə də problemə çevrilməsi ilə nəticələnib. Oradakı erməni əhalisinin separatçıların girovluğundan xilas edilməsi istiqamətində bu və ya digər formada addımlar atılırdı, hərçənd nəticə əldə etmək çətin idi. Separatçıların "müstəqillik" kimi qondarma iddiaları isə Qarabağdakı "boz zona"nın daha çox siyasi aspektdə mövcudluğunu ön plana çıxarır. Beynəlxalq təcrübəyə əsasən, siyasi aspektdə mövcud olan, yəni keçmiş, yaxud mövcud münaqişə bölgələrində formalaşan "boz zona"lara qarşı yeganə effektiv mübarizə üsulu antiterror əməliyyatının keçirilməsi idi. Bunun alternativi yoxdur. Azərbaycanın son üç ildə separatçıların sıxışdırılması, erməni əhalisinə daha yaxşı həyat bəxş etmək imkanlarına dair təkliflər və digər addımları da təsdiq edir ki, antiterror əməliyyatının alternativi yox idi ".

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"

Rusiyada hərbi səfərbərlik xofu

2024-cü ilin prezident seçkisi ərəfəsində səfərbərlik mövzusunun cəmiyyətdə yaratdığı həyəcan Kremlə sərf etmir

Rusiyada növbəti hərbi səfərbərlik ehtimalının çox müzakirə olunması hakimiyyəti narahat etməyə başlayıb. Novator.az-ın məlumatına görə, ölkənin "Meduza" internet nəşri Kremldəki mənbələrə istinadla yazır ki, Prezident Administrasiyasından media qurumlarına indən belə səfərbərlik mövzusuna mümkün qədər toxunmamaq, hətta şayiələri də təkzib etməmək tapşırılıb.



Kremlə yaxın KİV-lərdən birinin əməkdaşı "Meduza"ya deyib ki, səfərbərliklə bağlı xəbərlər, o cümlədən yeni səfərbərliyin elan olunacağı haqda iddialara verilən rəsmi təkziblər böyük diqqət cəlb edir, geniş auditoriya toplayır: "Bu da hakimiyyətin narahatlığına səbəb olub. Təkziblərin şayiələrin qarşısını almadığı, əksinə, daha da gücləndirdiyi aydınlaşıb. Cəmiyyətdə belə bir yanaşma var ki, hakimiyyət təkzib edirsə, deməli, xəbər doğrudur".

Məlumata görə, Prezident Administrasiyasından media qurumlarına tapşırılıb ki, indən belə material hazırlayanda səfərbərlikdən yox, insanların müqavilə əsasında hərbi xidmətə götürülməsindən bəhs etsinlər, həm də prosesin olduqca uğurla həyata keçirildiyini vurğulasınlar.

Xəbəri "Meduza"ya ötürən mənbə qeyd edib ki, xüsusilə 2024-cü ilin prezident seçkisi ərəfəsində səfərbərlik mövzusunun cəmiyyətdə yaratdığı həyəcan Kremlə əl vermir: "Bu, insanların ovqatını təlx edən mövzudur. Bəzilərini hətta etiraza sövq edə, prezident Vladimir Putinin tərəfdarı olan seçicilərdən kimlərisə onun əleyhinə səs verməyə yönəldə bilər".

"Meduza"ya danışan mənbə səfərbərliyin növbəti dalğasının olub-olmayacağını bilmədiyini də söyləyib.

1952-ci il təvəllüdlü Vladimir Putin 1999-cu il avqustun 16-da baş nazir təyin olunub, dekabrın 31-dən həmçinin prezident vəzifəsini icra edib, 2000 və 2004-cü illərdə prezident seçilib. 2008-ci ilin mayında baş nazir kürsüsünə qayıdıb, 2012 və 2018-ci illərdə yenə prezident mandatı alıb. Onun 2024 və 2030-cu illərdə də dövlət başçısı postuna namizəd olmaq hüququ var.

2022-ci il fevralın 24-də Ukraynaya qoşun yeridib total müharibəyə rəvac verən Vladimir Putin həmin il sentyabrın 21-də qismən hərbi səfərbərliyi nəzərdə tutan fərman imzalayıb. Fərmana uyğun olaraq ilin sonunadək Rusiyada 300 mindən çox adamın səfərbərliyə alındığı, onların təxminən yarısının döyüş bölgəsinə göndərildiyi bildirilir.

Neçə vaxtdır Rusiyanın döyüşlərdə ağır itkilərə məruz qaldığı üçün daha bir neçə yüz min adamı hərbi səfərbərliyə cəlb edəcəyi barədə söz-söhbət dolaşır.

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

Mərkəzi Bank bu gün hansı qərarı verəcək?

Uçot dərəcəsinə dair yeni qərarlar ABŞ, Türkiyə, Böyük Britaniyada da gözlənilir



Sentyabrın 20-də Azərbaycan Mərkəzi Bankı faiz dərəcələri ilə bağlı qərarını ictimaiyyətə açıqlayacaq. Qeyd edək ki, 2023-cü ilin əvvəlindən faizləri artıran Mərkəzi Bank son iki iclasında onları dəyişməz saxlayıb. İyulun 26-da ictimaiyyətə açıqlanan məlumatda bildirilir ki, Mərkəzi Bankın İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 9 faiz, faiz dəhlizinin aşağı həddi 7.5 faiz, faiz dəhlizinin yuxarı həddi isə 10 faiz səviyyəsində dəyişməz saxlanılıb. Qurum bu qərarı aparılmış makroiqtisadi təhlillər, yenilənmiş proqnozlar, daxili və xarici inflyasiya amillərinin və risklər balansının dəyişimi nəzərə alınmaqla verdiyini bəyan edib.

2022-ci ilin əvvəlində uçot dərəcəsi 7.50 faiz səviyyəsində idi. İl ərzində uçot dərəcəsi bir neçə dəfə artırılaraq 8.25 faizə, 2023-cü ilin ilk 5 ayında da bir neçə dəfə artırılaraq 9 faizə çatdırılıb. Azərbaycan Mərkəzi Bankı bu il sonuncu dəfə faizləri may ayında artırıb, iyun və iyul iclaslarında fasilə verib.

Ötən iclasdan sonra Mərkəzi Bank pul siyasəti ilə bağlı növbəti qərarlarını da "daxili və xarici inflyasiya risklərini, faktiki və gözlənilən inflyasiyanın hədəfdən yayınma dərəcəsini nəzərə almaqla qəbul edəcəyini" bəyan edib.

Azərbaycanda makroiqtisadi sabitliyin əsas qarantı olan neft gəlirləri avqust ayından bəri daha da artıb. Dünya neft bazarında qiymətlərin 90-95 dollara qədər bahalaşması ölkəyə valyuta gəlirlərinin daha sürətli axınını təmin edir. Bu isə makroiqtisadi planda ən mühüm sabitləşdirici amillərdən biridir.

Mərkəzi Bankın faizlərini dəyişməz saxlamasının səbəbi olaraq illik inflyasiya tempinin azalmaqda davam etməsi göstərilir. Belə ki, Dövlət Statistika Komitəsinin hesablamalarına əsasən, 2023-cü ilin avqust ayında Azərbaycanda istehlak qiymətləri indeksi iyul ayı ilə müqayisədə 0,4 faiz azalma göstərsə də, 2023-cü ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz artıb. 2023-cü ilin avqust ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi iyul ayı ilə müqayisədə 0,9 faiz azalıb, 2023-cü ilin yanvar-avqust aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 13,4 faiz artıb.

Prezident İlham Əliyev 2023-cü ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Azərbaycanda inflyasiyanın yüksək olmasını narahatlıq doğuran hal kimi xüsusi qeyd edib. Dövlət başçısı inflyasiyanın 13 faizə yaxın olmasında obyektiv amillərlə yanaşı, subyektiv amillərin də rol oynadığını bildirərək, sonuncuların araşdırılmasının gərəkdiyini vurğulayıb.

Ardınca iyulun 15-də baş nazir Əli Əsədov Azərbaycanda inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəyə endirilməsinin təmin edilməsi, inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə İşçi qrupun yaradılması barədə sərəncam imzalayıb.

İyulun 21-də Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə İşçi qrupun ilk iclası keçirilib. Açıqlanan məlumatdan aydın olur ki, iclasda istehlak səbətinə daxil olan məhsul və xidmət növü üzrə qiymətlərin, o cümlədən kənd təsərrüfatı və sənaye məhsullarının istehsalçı qiymət indekslərində dəyişmələrin daha dərindən araşdırılması, ticarət tərəfdaşlarında inflyasiya, eləcə də idxal inflyasiyası ilə bağlı olaraq idxal olunan məhsulların qiymət indeksləri və daxili bazarda qiymətlərə təsiri, inflyasiyanın artırıcı və azaldıcı faktorları və həyata keçirilən antiinflyasiya tədbirləri, habelə sağlam rəqabətin qorunması, daxili bazarda qiymətlərlə manipulyasiyaya yol verilməməsi və antiinhisar tədbirlərinin gücləndirilməsi məsələləri geniş müzakirə olunub. İclasın yekununda müzakirə olunan məsələlər barədə aidiyyəti qurumlara konkret tapşırıqlar verilib.

Mərkəzi Bankda hesab edirlər ki, ilin sonunadək inflyasiya üzrə hədəf göstəricisinə yaxınlaşmaq mümkün olacaq. "Fitch Ratings" beynəlxalq reytinq agentliyi də Azərbaycanda bu il və 2024-cü ildə inflyasiyanın azalacağını proqnozlaşdırıb. Bildirilib ki, illik inflyasiyanın azalması Azərbaycanın əsas ticarət tərəfdaşları olan Türkiyə və Rusiyaya münasibətdə manatın nominal effektiv məzənnəsinin artması və dünya bazarında ərzaq məhsullarının qiymətlərinin azalması ilə bağlıdır. Bununla belə, ərzaq və qeyri-kommersiya mallarına (əsasən xidmətlər) təzyiq güclü olaraq qalır: "Biz 2023-cü ilin sonunadək illik inflyasiyanın Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun yuxarı həddinə (4±2%) yaxınlaşacağını, 2023-cü ildə orta inflyasiyanın 10,1 faizə, 2024-cü ildə isə 6 faizə enəcəyini proqnozlaşdırırıq".

Qeyd edək ki, bu ərəfədə bir çox böyük mərkəz banklar uçot dərəcələrinə yenidən baxırlar. Belə ki, sentyabrın 15-də Avropa Mərkəzi Bankı hər üç əsas faiz dərəcəsini 25 faiz bəndi artırmaq qərarına gəlib. Qərarla kreditlər üzrə baza dərəcəsi 4,5 faizə, depozitlər üzrə faiz dərəcəsi 4 faizə, marja kreditləri üzrə faiz dərəcəsi 4,75 faizə qədər artırılıb.

"Avropa Mərkəzi Bankı (AMB) faiz dərəcələrinin uzun müddət yüksək səviyyədə saxlanmasının inflyasiyanın hədəfə qaytarılmasına əhəmiyyətli töhfə verəcəyini gözləyir", - Bunu AMB sədri Kristine Laqard iclasdan sonrakı mətbuat konfransında deyib. Bununla belə, o qeyd edib ki, dərəcələrin artıq pik həddə çatdığını söyləməyə hazır deyil: "Bugünkü qərarla biz inanırıq ki, inflyasiyanın vaxtında hədəf göstəriciyə qaytarılmasına kifayət qədər töhfə vermişik və hazırda hər iki element vacibdir - həm dərəcələrin kifayət qədər məhdudlaşdırıcı səviyyəsi, həm də onların saxlanma müddəti. Aydındır ki, hazırda diqqət daha çox "müddət" üzərindədir, lakin bu o demək deyil ki, biz indi dərəcələrin artıq pik həddinə çatdığını söyləyə bilərik".

Türkiyə Mərkəzi Bankı birigün uçot dərəcəsinə yenidən baxacaq. "Ekonomim" nəşrinin yazdığına görə, Mərkəzi Bankın pul siyasəti komitəsinin iclası sentyabrın 21-nə təyin edilib. Əksər ekspertlər bankın uçot dərəcəsini indiki 25 faizdən 30 faizə qaldıra biləcəyi ilə razılaşır. Daha mühafizəkar hesablamalara görə, bu göstərici 27,5 faizə yüksələcək. Bununla belə, bankın yenidən gözlənilməz qərar qəbul edib, uçot dərəcəsini 31 faizə qaldıra biləcəyi ilə bağlı gözləntilər də var.

Artımla bağlı proqnozlar hökumətin yeni ortamüddətli iqtisadi proqram qəbul etməsinə əsaslanır. Bu, pul-kredit siyasətinin effektivliyinin artırılmasına, inflyasiyanın azaldılmasına və ölkə iqtisadiyyatında böhran proseslərinin aradan qaldırılmasına yönəlib. Mərkəzi Bankın və Maliyyə Nazirliyinin hazırkı rəhbərliyi əvvəllər bu işin səmərəli olması üçün uçot dərəcəsinin artırılmasının zəruriliyinə inanırdı.

Xatırladaq ki, iyun ayında Türkiyə Mərkəzi Bankı 2021-ci ildən bəri ilk dəfə uçot dərəcəsini 8,5 faizdən 15 faizə qaldırıb. Bu, Respublika Mərkəzi Bankının yeni rəhbəri Hafize Qaye Erkanın ilk qərarı olub. Bunun fonunda Türkiyənin milli valyutasının məzənnəsi dollara nisbətdə o vaxtkı rekord enişini təzələyərək 1 dollar üçün 26 lirə həddini keçib. Avqust ayında əksər ekspertlər üçün gözlənilmədən dərəcə 17,5 faizdən 25 faizə yüksəldilib.

Dünyanın diqqəti isə sentyabrın18-20-də ABŞ Federal Ehtiyatlar Sisteminin (FED) iclasındadır. Qlobal valyuta, səhm birjalarında, xammal bazarlarında sanki bir durğunluq yaşanır, nəzərlər Vaşinqtona yönəlib.

Son iki ayda - iyul və avqustda ABŞ-da inflyasiyanın 0,1 faiz bəndi artması FED-in yenidən uçot dərəcəsini artırması təhlükəsi yaradıb. Bir sıra analitik mərkəzlər ölkənin əmək bazarındakı və iqtisadiyyatın əsas sahələrindəki müsbət tendensiyaların tənzimləyicinin yenidən artıma getməsi üçün zəmin yaratdığı qənaətindədirlər. FED rəhbəri Cerom Pauell avqust ayında Konqresdəki çıxışında tənzimləyicinin yenidən artıma gedəcəyini istisna etməyib.

Lakin əksər analitik mərkəzlər FED-in bu dəfə uçot dərəcəsini dəyişməz saxlayacağını proqnozlaşdırırlar. Hazırda müzakirələr daha çox FED-in sərt monetar siyasətini nə zaman yumşaltmağa başlayacağı ilə bağlıdır. Bu sahədə üstünlük təşkil edən mövqe noyabr toplantısında qurumun uçot dərəcəsini cüzi də olsa azaltması ehtimalıdır. Bununla da ABŞ-ın son 30 illik tarixində ən sərt monetar siyasət tsiklinin başa çatacağı güman edilir.

Bir çox investorlar sərt monetar siyasətin ABŞ-da iqtisadi vəziyyəti gərginləşdirməsinin an məsələsi olduğu qənaətindədirlər. Onların fikrincə, bu siyasət yumşaldılmasa iqtisadiyyatı resessiyadan xilas etmək mümkün olmayacaq. Lakin əksər investorlar resessiyanın 2024-cü ildə olacağını gözləyirlər.

Onu da qeyd edək ki, bu həftə Böyük Britaniya Mərkəzi Bankının da uçot dərəcəsinə dair yeni qərarı açıqlanacaq. Londondan artım qərarının olacağını analitik mərkəzlərin 97 faizi proqnozlaşdırır. Belə ki, ölkə hələ də inflyasiyanı hədəf göstəricisinə endirə bilməyib.

Beləliklə, bugünlərdə həm Azərbaycanda, həm də Azərbaycan üçün əhəmiyyətli olan ölkələrdə uçot dərəcələrinə yenidən baxılacaq. Bu sahədə hər bir dəyişikliyin ölkəmiz üçün təsirsiz ötüşməyəcəyi aydındır. Xüsusilə də qardaş Türkiyədə, ABŞ və Avropa Birliyindəki qərarlar Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir...

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

Dostları Cahangir Hacıyevi "ömürlüyə" göndərir

Sabiq deputat Dünyamin Xəlilov və Azad Cavadovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb; belə görünür ki, əsas məsuliyyəti Beynəlxalq Bankın keçmiş sədrinə "yükləmək istəyirlər"



Külli miqdarda mənimsəmədə təqsirləndirilən Dünyamin Xəlilov və Azad Cavadovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən prosesdə bildirilib ki, "Aqrarkredit" ASC məhkəmədə mülki iddia qaldırıb. ASC dəymiş ziyana görə Dünyamin Xəlilovdan 17 milyon 735 min manat kompensasiya tələb edir. Məhkəmə "Aqrarkredit" ASC mülki iddiaçı kimi tanıyıb və iddia iş materiallarına əlavə edilib. Daha sonra prokuror ittiham aktını elan edib.

İttihama görə, Dünyamin Xəlilov müxtəlif illərdə Azərbaycan Beynəlxalq Bankının keçmiş prezidenti Cahangir Hacıyev və Azad Cəfərovla birləşərək bankın vəsatətlərini mənimsəyib. Onlar banklarda kreditlərin verilməsi adı ilə müxtəlif məbləğlərdə pulları mənimsəyib. Həmin şəxslər müxtəlif vaxtlarda mütəşəkkil dəstə yaradaraq Beynəlxalq Banka külli miqdarda ziyan vurub. C.Hacıyev və A.Cəfərovdan 9 nəfərin adına kredit rəsmiləşdirərək 5 milyon manat kredit götürüb.

Ümumilikdə mütəşəkkil dəstə Azərbaycan Beynəlxalq Bankına 6 milyon 603 min manat ziyan vurmaqda təqsirləndirilir. Bundan başqa, A.Cavadov C.Hacıyevlə yaxın dostluğundan istifadə edərək 1 milyon 603 min 727 manatı mənimsəyib. Prosesdə təqsirləndirilən şəxslər barələrində elan edilən ittiham üzrə özlərini təqsirli bilməyiblər. Məhkəmənin növbəti iclası oktyabrın 16-da davam edəcək. Dünyamin Xəlilovla Azad Cavadov Beynəlxalq Bankın keçmiş rəhbəri, 2015-ci ildən həbsdə olan Cahangir Hacıyevlə dost olublar. Onların heç biri ittiham üzrə özünü suçlu saymır və bildirirlər ki, Beynəlxalq Bankdan götürülən kreditlər müxtəlif layihələrin icrasına, müəssisələrin yaradılmasına yönləndirilib. Onların hər ikisi daha öncəki məhkəmələrində də Beynəlxalq Bank işi üzrə bənzər ittihamlarla mühakimə edilirdi. İddia olunurdu ki, Cahangir Hacıyev dostları ilə əlbir olaraq onların tabeliyindəki işçilərin adına kreditlər ayırıb və həmin pulları mənimsənilib. Cahangir Hacıyev də 2015-ci ildən bu yana iki dəfə mühakimə olunub. Birinci dəfə onunla birlikdə məhkəmə qarşısına çıxarılanlar arasında Azad Cavadov da olub. Həmin məhkəmənin sonunda Cahangir Hacıyevə 15 il, Azad Cavadova 10 il 6 ay həbs cəzası kəsilib. 2019-cu ildə ikinci dəfə Dünyamin Xəlilovla mühakimə olunan keçmiş bankirin cəza müddəti 16 il 3 aya yüksəldildi. Sabiq deputatın özü ilk dəfə 13 il həbs cəzası almışdı. İkinci dəfə cəzası 14 il 6 aya qaldırılmışdı.

Dünyamin Xəlilov Bakıda tanınmış "Globus Plaza"nın sahibi olub. O, 2005-ci ildə Azərbaycan Beynəlxalq Bankının səhmdarı olub. 2005-2010-cu illərdə deputat olan Xəlilov hazırda həbsdə olan Azərbaycan Beynəlxalq Bankının sədri Cahangir Hacıyevin qohumu və işçisi idi. Cahangir Hacıyevə məxsus "Şəki Bazarı" və "Şəki Ət Kombinatı" ASC-ni uzun müddət Xəlilov idarə edib.

Belə görünür ki, dostları özlərini suçlu bilmirlərsə, demək, əsas məsuliyyəti də banka rəhbərlik etmiş Cahangir Hacıyevə "yükləmək istəyirlər". Cahangir Hacıyevin həbsdən əfv və ya amnistiya ilə çıxmaq şansı sıfırın altındadır. Şübhəsiz ki, məhkəmə başlayanda Cahangir Hacıyevin dindirilməsi vacib olacaq.

Ona bu məhkəmədən sonra yeni cinayət işi də açıla bilər ki, bu da sabiq bankirin ən yüksək cəza müddəti - 20 il verilə bilər. Bu isə elə "ömürlük həbs" kimidir...

Hüquqşünas Əkrəm Həsənov "Yeni Müsavat"a deyib ki, Beynəlxalq Bankdan milyardlarla manat oğurlanıb və bu pullar qaytarılmayınca, kimlərinsə həbsdən qurtulması mümkün deyil: "Azərbaycan Beynəlxalq Bankında dövlətin itkiləri 10 milyardlarla hesablanan itkilərdir. Cahangir Hacıyevə qarşı əvvəlki ittihamlarda elə də böyük rəqəmlər vardı ki, onunla əlbirlikdə ittiham olunanlara qarşı irəli sürülən mülki iddiadakı rəqəmlərə təəccüblənmədim. Ehtimalım belədir ki, yeni ittihamlar da ola bilər. Qanunsuz kreditlərə görə azı 200 nəfər məhkəmə qarşısına çıxarılmalıdır".

Hüquqşünas deyib ki, bu gün məhkəmədə kreditlər və həmin kreditlərin mənisənilməsi ilə bağlı ittiham araşdırılırsa, hakim qarşısında Cahangir Hacıyevlə bərabər 20 nəfər dayanmamalıdır: "Azı 200 nəfər məhkəmə qarşısına çıxarılmalı və kreditin qanunsuz verilməsi sübuta yetirilməlidir. Fikrimdə israrlıyam ki, Cahangir Hacıyev bu qədər pulu təkbaşına dağıda, mənimsəyə bilməzdi. Cahangir Hacıyev 15 ilə yaxın Azərbaycan Beynəlxalq Bankının sədri olub. Bu müddətdə həmin bank kreditlərin verilməsi minlərlə bank işçisini əhatə edib. Bankda ən adi bir kreditin verilməsi azı 15 nəfərin imzasından keçir. Ən sadə kreditin verilməsi bankın kredit, risklərin idarə edilməsi, hüquq, girovun qiymətləndirilməsi, əməliyyat, təhlükəsizlik departamentlərindən keçir və yalnız bundan sonra Kredit Komitəsi kreditin verilib-verilməməsi məsələsinə baxır. Həmin komitədə azı 7 nəfər kreditin verilib-verilməməsi haqda qərara imza atır. Azərbaycan Beynəlxalq Bankı ölkənin ən böyük bankı olub. Orada kreditlər necə verilib? Cahangir Hacıvevin dövründə Azərbaycan Beynəlxalq Bankı sağa-sola zəmanət verməklə məşğul idi. Cahangir Hacıyev məhkəməsində açıqlama verib deyəndə ki, 2 milyard kredit vermişəm, o, zaminliklə bağlı məsələlərin üstündən keçir. Yəni 2 milyardlıq kreditlə yanaşı, 10 milyardlıq zaminlik müqaviləsi haqda danışmalı olsa da, bunun üstündən keçir. Verilən zaminlik kredit portfelinə daxil deyil. Çünki bankdan həmin müqavilə bağlanarkən pul çıxmır. Sonra zamin dayandıqları zavodların sahibləri, ayrı-ayrı iş adamları kreditlər üzrə pul ödəməyəndə, avtomatik kredit müqavilələri üzrə öhdəliklər zaminin üzərinə transfer olunurdu və bankın kredit portfelinə daxil olurdu. Siz təsəvvür edin ki, belə layihələrə, belə riskli kreditlərə imza atan neçə-neçə bank rəsmisi, bankdan kənar şəxslər var. Həmin şəxslər də istintaqdan kənar saxlanıla bilməzlər. Əks təqdirdə, obyektiv nəticə əldə olunmayacaq".

Əkrəm Həsənov həmçinin qeyd edib ki, kimlərsə deyə bilər ki, həmin kreditlər verilərkən Cahangir Hacıyevi sənədlərə imza atmağa məcbur ediblər: "Amma bu məqam onu məsuliyyətdən azad etmir. Bu gün keçirilən məhkəməyə gəlincə, Azərbaycan Cinayət Məcəlləsinin 55-ci maddəsinə əsasən cəza müddəti 20 ildir. Bundan başqa, ömürlük cəza da təyin oluna bilər. Dünyamin Xəlilov və Azad Cavadovun cinayət işi üzrə məhkəmədə Cahangir Hacıyevin əleyhinə ifadələr verilsə və yeni ittihamlar olsa, cəzası maksimum həddə, 20 ilə qədər artıra bilərlər".

Cahangir Hacıyev 2015-ci ilin dekabrında həbs olunub və 2016-cı ilin oktyabrında Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmüylə 15 il azadlıqdan məhrum edilib. Apelyasiya Məhkəməsi də hökmü qüvvədə saxlayıb. C.Hacıyev ailə üzvləri və özünə yaxın olan başqa şəxslərin adına Beynəlxalq Bankdan milyonlarla dəyərdə kreditlərin götürülüb mənimsənilməsində suçlanır. C.Hacıyev özünü təqsirli bilmir. Keçmiş deputat Dünyamin Xəlilov ötən il 13 il həbs cəzası almışdı. Keçmiş deputat mənimsəmə, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma ittihamları üzrə mühakimə olunub. Beynəlxalq Bankın səhmdarı olan keçmiş deputatın C.Hacıyevin qohumu olduğu bildirilir. O da ittihamı qəbul etmirdi. Azad Cavadov isə 2016-cı ilə Cahangir Hacıyevlə bərabər mühakimə olunmuş, barəsində 10 il 11 ay azadlıqdan məhrumetmə cəzası çıxarılmışdı.

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

Ət yenidən bahalaşa bilər

Ekspert səbəbləri açıqladı



Azərbaycanda mal və qoyun ətinin bahalaşması davam edir. "Sputnik Azərbaycan"ın Dövlət Statistika Komitəsindən əldə etdiyi məlumata görə, bu ilin avqust ayında sümüklü mal ətinin orta aylıq pərakəndə satış qiyməti 14,10 manata, sümüksüz mal ətinin orta aylıq pərakəndə satış qiyməti 16,39 manata, qoyun ətinin orta aylıq pərakəndə satış qiyməti isə 15,24 manata qalxıb. Bu ilin əvvəli ilə müqayisədə avqust ayında sümüklü mal əti 8 faiz, sümüksüz mal əti 6,7 faiz, qoyun əti 9,1 faiz bahalaşıb. Ümumiyyətlə, cari ildə ətin davamlı şəkildə bahalaşması müşahidə edilib.

Bəs ətin bahalaşmasının səbəbləri nədir? Payız aylarında ətin qiyməti necə olacaq? İşğaldan azad edilmiş rayonlarda ət istehsalı qiymətlərə təsir edirmi?

İqtisadçı-ekspert Xalid Kərimli "Sputnik Azərbaycan"a açıqlamasında deyib ki, ətin bahalaşmasının əsas səbəbi yem xərclərinin artmasıdır:

"Yem xərclərinin məhsulun maya dəyərində payı ət istehsalı üzrə təxminən 65-70 faizdir. Xaricdən gətirilən yem və yem əlavələrinin bahalaşması nəticəsində ətin istehsal xərci artıb. İkincisi, ölkədə inflyasiya mühiti var, əvvəlki 100 manat indiki 100 manat deyil, yəni pulun alıcılıq qabiliyyəti aşağı düşüb. Ət istehsalçısı da pul qazanmaq istəyir. Başqa sözlə, ət istehsalında xərclər artıb, pulun dəyəri aşağı düşüb. Əvvəlki qiymətləri biz artıq unutmalıyıq. Qiymətin aşağı düşməsi üçün ət istehsalının böyük həcmdə artmasına ehtiyac var".

Ekspert diqqətə çatdırıb ki, Azərbaycanın işğaldan azad edilmiş rayonlarında ət istehsalını böyük həcmdə artırmaqla qiymətləri aşağı salmaq olar: "İstehsal artsa, fermerlər əti daha ucuz satmağa məcbur olacaqlar. Lakin bu ilin 6 ayında 2022-ci ilin eyni dövrü ilə müqayisədə azad edilmiş rayonlarda ət istehsalının 6 faiz artması böyük göstərici deyil. Ona görə də bu, qiymətlərə hələlik əhəmiyyətli təsir etmir. Hazırda Azərbaycanda ət istehlakı Avropadan 2,5-3 dəfə aşağıdır, yəni ət yeməyə maddi imkanımız çatmır. Maddi imkan artdıqca ət istehlakı da artır. Digər tərəfdən, əhalinin sayı da yüksəlir. Başqa sözlə, qiymətin aşağı düşməsi üçün ət istehsalının böyük həcmdə artmasına ehtiyac var".

O bildirib ki, ət məhsullarından biz əsasən kolbasa və sosiska idxal edirik, mal və qoyun ətini yerli istehsalçılardan alırıq: "Xaricdən gətirilən ət məhsullarında da kifayət qədər bahalaşma var. Əvvəllər Ukraynadan ucuz qiymətə ət məhsulları alırdıq, indi Ukraynadan idxal yoxdur. Keçən il ölkədə mal əti üzrə özünütəminetmə səviyyəsi 93 faiz, qoyun və keçi əti üzrə özünütəminetmə səviyyəsi isə 97 faiz olub".

"Ət bazarında çoxlu iştirakçılar olduğuna görə bu bazarda monopolist axtarmaq doğru deyil. Payız aylarında ətin qiymətində ciddi dəyişiklik gözləmirəm", - deyə ekspert əlavə edib.

Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli isə "Sputnik Azərbaycan"a açıqlamasında deyib ki, ətin bahalaşmasının əsas səbəbi istehsalın az olmasıdır. Ekspert bildirib ki, qarşıdakı aylarda ətin qiyməti yenidən bahalaşacaq:

"Adətən yay aylarında ətə tələbat azalır və bu azalma fonunda ət nisbətən ucuzlaşır. Amma bu il yayda ət, əksinə, bahalaşdı. Bu, o deməkdir ki, havalar soyuduqca, toylar başladıqca ətin qiyməti bir qədər də bahalaşacaq. Ət ilin sonuna qədər təxminən 10-15 faiz bahalaşa bilər".

YENİ MÜSAVAT
N 167 (8303) 20 sentyabr 2023

Məktəblər başladı - bəs bufetlərə nəzarət?

Məktəb bufetlərində qidalar həm çox baha, həm də köhnə olur...



Bir neçə gün öncə yeni tədris ilinə start verildi. Xatırladaq ki, ötən tədris ilində bəzi məktəblərdə şagirdlər arasında qidalanma ilə bağlı bir neçə zəhərlənmə halları baş vermişdi. Bu səbəbdən Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi cari ilin aprel ayında qidalanmanın təşkili səviyyəsinin yoxlanılması məqsədilə qida bloku ilə təmin olunmuş 174 ümumi təhsil müəssisəsində yoxlama həyata keçirib.

Yoxlama zamanı 172 ümumi təhsil müəssisəsində müxtəlif nöqsanlar aşkar edilib ki, bunlardan 42-də inzibati məsuliyyət yaratmayan (qida təhlükəsizliyi qeydiyyatına alınmamaq), 130-da isə inzibati məsuliyyət yaradan nöqsanlar müəyyən edilib, nəticədə təhsil müəssisəsinin məsul şəxsləri inzibati məsuliyyətə cəlb olundular.

Bildirilir ki, 2023-2024-cü tədris ilində məktəb bufetlərində xoşagəlməz halların yaşanmaması üçün bütün təhsil müəssisələrində xüsusi qida nəzarətinə başlanılacaq.

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli jurnalistlərə açıqlamasında deyib ki, bu ildən etibarən Qida Təhlükəsizliyi İnstitutu nazirliyin tabeliyindəki bütün müəssisələrdə xüsusi proqram və təlimlər həyata keçirəcək: "Keyfiyyətə nəzarət məsələlərinə, həmçinin məhsulların daşınması, çatdırılması, satılmasına xüsusi nəzarət prinsipləri tətbiq olunacaq. Ümid edirəm ki, gələcəkdə neqativ hallar ortadan qaldırılacaq".

Maraqlıdır, məktəb bufetlərinə nəzarət hansı formada aparılacaq?

Yeri gəlmişkən, əksər valideynlər məktəb bufetlərindən imtina ediblər. Qeyd edirlər ki, məktəb bufetlərində qidalar həm çox baha, həm də köhnə olur. Bizimlə söhbətdə iki övladını məktəbdə oxuyan Sevda Əliyeva da narazılıq etdi. O qeyd edir ki, bufetlərdəki keyfiyyətsiz qidalara görə uşaqlarının çantaları olduqca ağır olur: "Məktəblərdə bufetlər normal olsa, biz də əziyyət çəkməzdik. İki uşağın çantasına məcburam su, qida qoyam. Övladlarım 145 saylı məktəbdə təhsil alırlar, qızım 7-ci sinifdə oxuyur, bu ilin cədvəlində həftədə 4 dəfə səkkiz dərs salıblar. Uşaq evə gəlib çıxınca saat 4 olur. Səhər 8-in yarısından 4-ə kimi uşaq necə ac qala bilər?! Dərs yükü çox, çanta ağır. O qədər dərs olar?! Heç olmasa bufetdə normal, ucuz qida olsaydı, bu yükdən azad olardıq".

İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, məktəb bufetləri hansı formada idarə olunacaq, bu artıq AQTA-nın funksiyasına daxil olan məsələdir: "Lakin mən çağırıram ki, valideyn komitələri, direktorlar bu işdə əlbir olsunlar, vəziyyəti düzəltmək üçün iş görsünlər. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi mövcud olan vaxtı məktəb bufetləri üçün standart hazırlandı. Orada bir çox qidaların satışına qadağa qoyuldu, o cümlədən qazlı içkilərin, "Coca-cola"nın, rəngli içkilərin, kolbasa məmulatlarının, çipsilərin satışına məhdudiyyətlər qoyulub. Standartlar mövcud olsa belə, məktəb bufetlərində gənc nəslin tədricən zəhərlənməsi, mədə-bağırsaq xəstəliyinə tutulmaları davam edir. Təsadüfi deyil ki, biz Azad İstehlakçılar Birliyi Avropa İttifaqının layihəsi çərçivəsində 20-yə qədər məktəbdə gənc istehlakçı klubları yaratdıq. İctimai nəzarəti həyata keçirməyə başladıq. Artıq onlar estafeti özlərindən aşağı siniflərə ötürdülər. Bu bəzi regionlarda indi də davam edir. Lakin onu da biz qeyd edək ki, xüsusən regionlarda məktəb bufetləri ayrı-ayrı şəxslərə icarəyə verilib. Məktəb direktorları oradan yararlanırlar. Üstəlik, böyük tənəffüslər heç də kütləvi şəkildə uşaqların qidalanmasına şərait yaratmır. Ona görə biz daim demişik ki, məktəb koridorlarında avtomatik meyvə satılan aparatlar qoyulsun. Uşaqlar 20 qəpik atsın, alma, ya da başqa meyvə yeyə bilsinlər. AQTA-nın apardığı işlər, əlbəttə, çox vacib və zəruridir. Qidalanmanın mədəniyyətinə məktəbdən başlamaq lazımdır. Lakin məktəb bufetlərində işləyən adamların əl-ayağını bir yerə yığıb qanunun tələblərinə uyğunlaşdırmaq elə də asan deyil. Haqlı olaraq AQTA qida zəncirində iştirak edənlərin qida təhlükəsizliyi reyestrində qeydiyyatda olmamasını əsas gətirir və onları cərimələyir. Yəni qida sektorunda fəaliyyət göstərən, saxlayan, daşıyan, istehsal edən hamı qida təhlükəsizliyi reyestrində qeydiyyatda olmalıdır ki, orada nəzarət həyata keçirilsin. Lakin hökumətin istehlakçı hüquqlarını qorumaq sahəsindəki, o cümlədən qidanın təhlükəsizliyinin təmin olunmasında effektsiz siyasəti, yoxlamanın həddən artıq bürokratik bir prosedur olması, bir yerdə təhlükəli qida satılarsa, heç bir dövlət orqanının ora müdaxilə edə bilməməsi yanlışdır. Hökumətin biznes qurması üçün yaratdığı ərkəsöyün obrazı, əlbəttə, AQTA-nın da "əl-qolu"nu bağlayır. Cəld yoxlama mexanizmi olmadığından onlar planlı yoxlama edirlər. Planlı yoxlamanı da öncədən qarşı tərəfə xəbərdar edirlər. Bu da yoxlamanın effektini aşağı salır. Lakin biz bunu da bilməliyik ki, ümumiyyətlə, zəhərlənmələr gizlədilir. Ümumdünya göstəricisinə görə, qida təhlükəsizliyinin təlimatına dair dövlət strategiyasının sənədində qeyd olunur ki, dünya əhalisinin hər 10 nəfərindən 1-i ildə bir dəfə zəhərlənir. Yəni bu hesabla götürsək, Azərbaycanda ildə bir milyona qədər zəhərlənmə diaqnozu olmalı idi. Lakin AQTA-da təqribən 700-dən bir az çox rəqəm göstərilir. Eləcə də ölümlərin sayı az göstərilir. Bu o deməkdir ki, ölkədə qida zəhərlənmələrinin qeydiyyat məsələsində böyük problemlər var. Qidadan zəhərlənənlərin sayı bir neçə yüz dəfə az qeydə alınır. Bunlar həll olunmalıdır. Məktəb bufetlərində qidanın təhlükəsizliyini təmin etmək üçün mütləq ictimai nəzarət və bu ictimai nəzarət də KİV-lə birgə həyata keçirilməlidir".

Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi İlqar Orucov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirdi. O dedi ki, AQTA-nın məktəblərdə apardığı yoxlama nəticəsində açıqladığı rəqəm kifayət qədər böyük rəqəmdir: "Bunun 130-u inzibati məsuliyyət yaradan nöqsanlardır. Bu, kifayət qədər ciddi rəqəmdir. Biz hər birimiz, təhsil ictimaiyyəti, valideynlər maraqlıyıq ki, məktəb bufetlərində övladlarımız üçün təhlükə mənbəyi olan qidalar istifadə olunmasın. Məktəb bufetləri gigiyenik baxımdan təmiz olmalıdır, orada satışa çıxarılan qidalar sağlam qidalar olmalıdır. Biz əksər bufetlərdə valideyn olaraq da nöqsanları görə bilirik. Çox doğru yanaşmadır ki, 2023-2024-cü tədris ilində məktəblərdə neqativ halların yaşanmaması üçün nəzarətə başlanacaq. Burada məhsulların daşınmasından tutmuş satılmasına qədər qaydalar tətbiq olunacaq. Sözsüz ki, bütün bunlar tətbiq olunsa, hazırda qarşılaşdığımız çatışmazlıqlar və neqativlər aradan qalxmış olacaq. Əlbəttə, məktəb bufetlərində Elm və Təhsil Nazirliyinin (ETİ) tabeliyində olan təhsil müəssisələri olduğu üçün bu məsələnin ETİ ilə bağlılığı var. Amma ETİ məktəb bufetlərinin istifadəsini həyata keçirmir. Nazirlik burada xoşagəlməz hallarla bağlı narazılıq olacaqsa, bu məsələdə müdaxilə edə bilər. Əlbəttə, məktəb rəhbərlikləri nəzarət mexanizmini kifayət qədər sərtləşdirməlidir. Qeyd etdiyim kimi, bu gün məktəb bufetləri icarəyə verilir. Onlar icarə əsasında idarə olunur. Əlbəttə, ETİ-nin marağındadır ki, məktəb bufetlərində xoşagəlməz hallar olmasın. Orada ETİ-nin başqa gözləntisi yoxdur. Gözlənti yalnız ondan ibarətdir ki, nəzarət güclü olsun, şagirdlər təhlükəli qidalardan əziyyət çəkməsin. O baxımdan da məktəblərə nəzarət mexanizmi təkmilləşdirilməlidir. Hesab edirəm, burada AQTA nəzarətini daha da gücləndirməlidir. AQTA bu məsələdə məsuliyyətlidir, nəzarət güclü olmalıdır. Məktəb rəhbərləri maraqlı olmalıdırlar ki, sağlam qidalardan istifadə olunsun. Keyfiyyətə nəzarət prosesində məktəb rəhbərliyinin üzərinə böyük məsuliyyət düşür, onlar konkret mövqe ortaya qoymalıdırlar. O ki qaldı Elm və Təhsil Nazirliyinə, təbii ki, nazirlik şagirdlərin sağlam qidalanmasında maraqlıdır. Amma məktəb bufetlərində sağlam qidalanma ilə bağlı problemdən çox orada qiymətlərin baha olmasından narazılıqları daha çox eşidirik. Eyni zamanda saxlanması uzun müddət olan qidaların satılması da doğru deyil. Xüsusi şəraitdə saxlanılması vacib olan qidalar var ki, bunlara əməl olunmadan qidalar satılır. Bu gün valideynlər övladları məktəbdən qidalanmasın deyə evdən nə isə qoyurlar. Təbii ki, məktəb bufetlərində qiymətlər əlçatan olsa, keyfiyyətli olsa, bu kimi məsələlərdə valideynlər əziyyət çəkməzlər".

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 166 (8303) 20 sentyabr 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

Sosial şəbəkələrdə yazı mədəniyyət(sizliy)i

Qulu Məhərrəmli: "Yuxarı siniflərdə media savadlılığı fənni keçilməlidir, çünki..."



Son zamanlar sosial şəbəkələrdə, eləcə də ictimaiyyətdə yerli şou-biznes əhlinin savadsızlığı, nitq mədəniyyətinə, ədəbi dilin normalarına riayət etməməsi müzakirə obyektinə çevrilib. Bu mövzunun növbəti dəfə gündəmə gəlməsi müğənni Xatirə İslamla bağlı olub. Belə ki, sosial şəbəkə hesabında məclislərdən birindən video yayımlayan ifaçı "Səhnədən darıxdım" şərhini yazıb.

Onun yanlışı izləyicilərin gözündən yayınmayıb. Bir çoxları Xatirəyə cümləni anlaşılmaz qurduğunu bildirməklə irad tutub.

Musavat.com-un xəbərinə görə, məsələ ilə bağlı Yenisabah.az-a danışan Əməkdar incəsənət xadimi, tanınmış şair Baba Vəziroğluna görə, hər şeyin kökü gedib təhsilə dayanır: "Əsas müzakirə edilməli olan məsələ təhsilimizin niyə bu gündə olmasıdır. Niyə insanlar, sadəcə, adlarının qarşısına "quş" qoyulması xətrinə məktəbə gedirlər? Bütün bunlar aradan qaldırılmasa, problemlər həll olunmayacaq... Gedib 2 sinif oxuyub əlifbanı öyrənirlər, sonra olurlar "alim", hələ üstəlik, sosial şəbəkələrdə də insanlara nəsihət verirlər".

Qeyd edək ki, son illərdə təhsilin səviyyəsi ilə bağlı xeyli narazılıqlar var. Hətta elm və təhsil naziri Emin Əmrullayev də dəfələrlə bu mövzuya toxunub. Bugünlərdə verdiyi açıqlamada isə bəzən yüksək nəticələrə malik olan abituriyentin bir səhifəlik esse yaza və ya başa sala bilmədiyini deyib. Bu baxımdan, bir çox mütəxəssislər təhsil sistemində müəyyən dəyişikliklər edilməsinə, yeni təhsil proqramlarının həyata keçirilməsinə böyük ehtiyac olduğunu bildirir.

Mövzu ilə bağlı sabiq təhsil naziri Firudin Cəlilov "Yeni Müsavat"a danışıb: "Əslində bu məsələdə mənim də təqsirim var. Belə ki, təhsilə test imtahanlarını gətirməklə şagirdlərin yazı yazma, hətta danışıq qabiliyyətini zəiflətmiş olduq. Əvvəllər adətən yuxarı siniflərdə şagirdlərə imla, inşa yazdırardılar. İndi isə yuxarı sinif şagirdlər repetitor yanına hazırlığa gedir, bu işlərlə çox da məşğul olmurlar. Hətta məktəbdən yayınıb, repetitor yanına gedən şagirdlərin danışıq qabiliyyəti də zəifləyib. Nəticədə cəmiyyətdə savadsız nəslin yetişməsinə, bəzi diplomlu insanların öz ana dilini, bu dilin orfoqrafik qaydalarını yaxşı bilməməsinə gətirib, çıxarır. Yəni test imtahanlarının bu cür ziyanlı tərəfləri də var.

Qeyd edim ki, o vaxt test imtahanlarını ölkəyə gətirəndə fikirləşirdik ki, bu, müvəqqətidir, yəni müəyyən müddət ədalət bərpa olunsun ki, kasıbların uşaqları oxuya bilsin və bir neçə ildən sonra test imtahanlarını ləğv edərik. Lakin həyat elə gətirdi ki, biz o işlərdən uzaqlaşası olduq, ona görə də artıq savadsız bir nəsil yetişib.

İkinci bir tərəfdən, qeyd edim ki, hazırda təhsil sistemi həddən artıq bərbad vəziyyətdədir. Dərd burasındadır ki, bəzən savadlı bildiyimiz, hətta alim saydığımız insanlar da yazı qaydalarını pozurlar. Bunun bir səbəbi də orfoqrafiya qaydalarında dəqiqləşmənin aparılmamasıdır. Yerindən duran deyir ki, filan sözü filan cür yazmaq olar. Məsələn, yazırlar ki, "Xankəndinə qayıtmalıyıq". Halbuki "Xankəndinə" olmalıdır.

Çox təəssüf ki, cəmiyyətdə çox sayda alim adını almış, diplomlu, amma savadsız insanlar var. Onlar bu diplomu oxumadan, hansısa yollarla alır, dissertasiyalarını da başqalarına yazdırırlar. Adam tanıyıram ki, ömründə bir dəfə də olsun məqalə yazmayıb, amma professordur.

Bu mənada, yeni təhsil sisteminə, həmçinin yeni təhsil proqramlarına ehtiyac var. Biz artıq 21-ci əsrdə yaşayırıq. Yeni əsrdə yeni texnologiya bumu yaranıb. Yəni texnologiya sürətlə inkişaf edir və onunla ayaqlaşmaq lazımdır. Bunun üçün bu sahənin mütəxəssislərini yetişdirməliyik. Bu mənada təhsil sistemi dəyişməli, yenidən qurulmalı, yeni dövrə uyğunlaşdırılmalıdır".

Filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli isə mövzu ilə bağlı bunları qeyd edib: "Təbii ki, qaldırılan məsələ ciddi problemdir. İstər sosial şəbəkədə, istər televiziya ekranlarında görürük ki, ana dilində danışanların bir çoxu həqiqətən dayaz düşüncənin sahibidir, özlərini ifadə edə bilmir və bununla bağlı ciddi problemlər var. Bəs niyə belədir? Burada təhsil sistemi, yoxsa ailə günahkardır - bu, əbədi müzakirələr və mübahisələrdir.

Fikrimcə, birinci növbədə bu adamların özləri günahkardırlar. Yəni təhsil heç kimi məcburi şəkildə məktəblərə dartmır. Adamlar özləri məktəblərdə çox zəif oxuyur, yalançı attestat alır və sonra da ortaya çıxanda məlum olur ki, səviyyəsi o qədər aşağıdır ki, heç, ümumiyyətlə, adam içinə çıxarılası deyil. Bəs bunun qarşısını necə almalıyıq? Orta məktəbin yuxarı siniflərindən başlayaraq, məsələn, 9-cu siniflərdə media dərsi və yaxud media savadlılığı dərsi keçirilməlidir. Bununla bağlı qardaş Türkiyədə artıq 10 ilə yaxındır ki, xüsusi fənn keçirilir. Həmin fənn üzrə sosial şəbəkədə həm yazı qaydalarını, həm necə davranmağı , informasiya ilə necə işləməyi, necə kiçik mətnlərlə status yazmaq texnologiyasını öyrədirlər. Bir sözlə, bütün bu problemlərin kökündə savadsızlıq dayanır, bunu aradan qaldırmalıyıq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

Azərbaycanda yetkinlik yaşına çatmamış analar - şok statistika

Mütəxəssislər həyəcan təbili çalır; **mama-ginekoloq:** "Uşaq yaşda ana olmağın psixoloji travması fizioloji fəsaddan daha ağır olur"

2022-ci ildə Azərbaycanda 15-17 yaşlı 2011 qız ana olub. Bu barədə Dövlət Statistika Komitəsinin (DSK) Azərbaycandakı demoqrafiq durumla bağlı ötən ilə dair hesabatında qeyd edilib.



Hesabatdan belə məlum olur ki, 18 yaşı tamam olmayan qızların dünyaya gətirməsi halları əvvəlki (2021) illə müqayisədə artıb. Belə ki, 2021-ci ildə yeniyetmə anaların sayı 1650 nəfər olmuşdu.

Qeyd edək ki, qanuna əsasən, 16 yaşa qədər olan oğlan və qızlar uşaq hesab olunur. Azərbaycan qanunvericiliyində 2011-dən qadın üçün nikah yaşı 17-dən 18-ə qaldırılıb. Belə olan halda uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması deməkdir. Statistikadan da görünür ki, Azərbaycanda erkən nikah, uşaq yaşda ana olmaq problemi səngimək əvəzinə, daha da artır.

Mütəxəssislər bildirir ki, bu yaşda qadında uşağın inkişaf etdiyi orqanlar tam yetişmədiyindən bətndəki uşağın da inkişafı ləngiyə və ya anormal uşaq dünyaya gələ bilər. Bundan başqa, qızlar qadınlıq və analıq dövrlərində yaşı az olsa belə, onlarda qadınlaşma, püxtələşmə prosesləri başlayır. Beləliklə, orqanizmdə hormonal balanslaşma pozulur. Bu da qadının tez yaşlanmasına və xəstəliklərə tutulmasına səbəb olur. Təcrübədə qadın xəstəliklərinə əksər hallarda erkən yaşda ailə quran xanımlarda rast gəlinir. Həmin yaş həddində orqanizmdə formalaşma hələ tam başa çatmamış sayılır. İstisnaları çıxmaq şərti ilə mütəxəssislər erkən yaşda ana olmuş qadınların yeni missiyaya psixoloji hazırlığının aşağı olduğunu da vurğulayırlar. Bu isə cəmiyyət üçün yetişdiriləcək fərdin normal təlim-tərbiyədən məhrum edilməsinə yol açır.

Bəs Azərbaycanda yetkinlik yaşına çatmayan analaların sayı ildən-ilə niyə artır? Əsas səbəblər hansılardır?

Mövzu ilə bağlı "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Yeni Müsavat"a danışıb: "Bu, əsasən pandemiyanın fəsadıdır. Xatırladım ki, 2 il qapalı müddət oldu, toylara qadağa qoyuldu, məktəblər bağlandı. Nəticə ona gətirib çıxartdı ki, erkən nikahı aktual mövzuya çevrildi. Yəni baxmayaraq ki, bu məsələ ilə bağlı müəyyən işlər görülmüşdü, sistem qurulmuşdu, pandemiya bunun hamısını iflic vəziyyətə saldı.

İkinci bir vacib məsələ ondan ibarətdir ki, son vaxtlar erkən nikahla bağlı hansısa məsələlər ortaya çıxanda çox vaxt məlum olur ki, qızların özü ərə getmək istəyir. Fikrimcə, burada problemin kökü təhsildəki müəyyən boşluqlar, sosial şəbəkələr, təcavüz hadisələrinin artması, uşaqların evdən qaçması və sairə, bu cür məlumatların geniş yayılmasıdır ki, nəticədə valideynlər guya "yaxşı tədbirlər" görmək və onların "təhlükəsizliyini qorumaq" üçün qızlarını erkən yaşda ərə verməyə çalışırlar.

Bir qisim qızların təhsilə marağı azaldığından daha çox ərə getməyə maraq göstərir və hesab edirlər ki, bu onların talelərində ən gözəl andır və cidi bir dəyişiklikdir. Məsələn, bu yaxınlarda bir mütəxəssislə söhbətləşəndə qeyd etdi ki, "dağ kəndlərində qızlar çalışırlar ki, tez bir zamanda ərə getsinlər, dağdan düşüb, həyət görsünlər".

Bütün bunlar onu göstərir ki, qadınlar üçün mədəni imkanların, 18 yaşa qədər olan qızlar üçün sosial paketlərin, uşaq inkişaf mərkəzlərinin sayının artırılmasına ehtiyac var.

Həmçinin qız və qadınların təhlükəsizliyi çox prioritet məsələ olmalıdır. Hər hansı cinayət hadisəsi baş verəndə onların qaynar xəttə zəng edib, bu barədə məlumat verə bilməsi təmin olunmalıdır. Qeyd etdiklərim kompleks şəkildə baş verməsə, ətrafda baş verən neqativ təsirlər nəticəsində ailələr yenə də qızlarını erkən yaşda ərə verməyə çalışacaq. Biz deyirik ki, uşaq dövlətə məxsusdur, valideyn isə deyir ki, uşaq mənim əmlakımdır, istədiyim kimi davrana bilərəm".

T**anınmış mama-ginekoloq Rəşad Sultan da mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb**: "Ümumiyyətlə, mama-ginekologiyada nisbi hamiləlik anlayışı var. Yəni biz bilirik ki, hamiləlik fizioloji təbii haldır, biz həkimlərin də vəzifəsi ondan ibarətdir ki, hamilə qadını müayinə edərkən müəyyən riskli vəziyyətləri, təbii haldan kənara çıxmaları aşkara çıxartmaq, risk qruplarını ayırmaq, vəziyyəti nəzarətə götürmək, lazım gələn tədbirləri görməkdir. Risk qruplarının biri də erkən hamiləliklə bağlıdır. Məsələn, necə ki, 35 yaşdan yuxarı hamiləliklər riskli hamilələr sayılır, eləcə də 20 yaşdan əvvəl hamiləliklər də riskli hamiləliklər hesab olunur. Bu halda bir nömrəli risk təhlükəsi vaxtından əvvəl doğuşdur. Statistika, elmi araşdırmalar onu göstərir ki, 20 yaşa qədər olan hamiləliklərdə vaxtından əvvəl doğuş riski 3 dəfə çoxdur. Vaxtından əvvəl doğuşun isə təhlükəsi ondan ibarətdir ki, yeni doğulan körpənin ölüm riski böyükdür. Bəzən isə ölüm faktı olmasa da, yeni doğulan körpə şikəst olur və bu da sağlamlıq baxımından həm cəmiyyət, həm də ailə üçün problem yaradır. Anaya gəldikdə isə, hələ fiziki cəhətdən yetişməmiş, özü uşaq olan biri necə bətnində 3-4 kq uşaq daşıya bilər? Bu, hələ tam formalaşmamış orqanizm üçün böyük travmadır. Uşaq yaşda ana olmağın psixoloji travması fizioloji fəsaddan daha ağır olur. 15-17 yaşda olan uşağın hamiləliyi, hamiləlik dövründə keçirdiyi hisslər nə olacaq və ondan sonra zahılığı, uşağa baxmaq dövrü necə olacaq? Onsuz da hormonal dəyişikliklər səbəbi ilə zahı qadının psixologiyası alt-üst olur. Zahılıq psixozu deyilən bir anlayış var və uşaq yaşda ana olan şəxs üçün bu risk daha böyükdür. Bu baxımdan, erkən, uşaq yaşda ana olmaq qəti yolverilməzdir".


❑ **Xalidə GƏRAY**
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 167 (8303) 20 sentyabr 2023

20 Sentyabr



Erməni terroru - mina qurbanları...





Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2435

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.